QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 218 (8811) BAZAR, 10 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İkiəsrlik erməni faşizminə 44 gündə son qoyuldu

Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi düşmənin acı məğlubiyyəti, 30 il idi işğal altında qalan Qarabağın və ətraf rayonların azad olunması ilə başa çatdı.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin Vətən uğrunda "İrəli" əmri ilə düşmən üzərinə yeriyən qəhrəman döyüşçülərimiz müharibənin elə ilk günündən mənfurların külünü göyə sovuraraq torpaqlarımızdan qovmağa başladı. Ana torpağı işğalçılardan təmizləmək amalı ilə müqəddəs yürüşə çıxan igidlərimizi, bu haqq yolunda nə düşmənin illərdir işğalda saxladığı torpaqlarımızda yaratdığı hərbi istehkamlar, nə basdırdığı minalar, nə də aşılmaz saydığı səngərləri saxlaya bildi. Qarış-qarış, addım-addım torpaqlarımızı azadlığa qovuşduran cəsur döyüşçülərimiz hünər meydanında əsl cəsarət, qəhrəmanlıq nümayiş etdirərək nə göydə, nə də yerdə düşmənə aman verdilər...

## "Bu qanlı cinayətkar Serjik Sarkisyandır"

Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmən hər zaman olduğu kimi, Vətən müharibəsində də faşist xislətinə xas davranaraq çoxsaylı hərbi cinayətlər törətdi. Yenə də günahsız mülki insanları hədəfə almağa başladı, əllərini dinc sakinlərimizin - körpələrin, uşaqların, qocaların qanına buladı.

Əslində, Azərbaycan xalqı erməni vandallarının murdar xislətlərinə yüz illərdir ki, bələddir. Xalqımız tarixin müxtəlif dövrlərində bu insan qatillərinin törətdikləri soyqırımları ilə üz-üzə qalıb. 1918-ci ilin mart soyqırımı, 1992-ci ilin Xocalı soyqırımı, əsir götürdükləri soydaşlarımızın başına gətirdikləri müsibətlər yaddaşlardan silinməyib.

Faşist ideologiyalı ermənilər xalqımıza qarşı törətdikləri bu dəhşətli əməlləri ilə daim öyünüb, qocaları, qadınları, uşaqları öldürməklə, xüsusilə də qəddarcasına, insan ağlına sığmayan işgəncələrlə həyatlarına son qoymaqla fəxr ediblər. Hətta xarici KİV-ə verdikləri müsahibələrində, qələmə aldıqları yazılarında bu iyrənc əməllərini dünyaya bəyan etməkdən heç zaman çəkinməyiblər...

Məşhur britaniyalı jurnalist, "Qarabağ" kitabının müəllifi Tomas de Vaalın 2000-ci ildə ovaxtkı Ermənistan prezidenti Serjik Sarkisyandan aldığı müsahibədən kiçik bir hissəyə diqqət yetirək: "Xocalı hadisələrinədək azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq".

Serjik Sarkisyan tərəfindən səsləndirilən elə bu qandondurucu fikirlərdən də aydın görünür ki, erməni faşistləri hər zaman düşünüblər ki, Azərbaycan xalqına qarşı bu cür vəhşiliklər törədərək onların gözlərini qorxudacaq, tarixi torpaqlarımızın ermənilər tərəfindən zəbt olunmasına göz yumduracaqlar...

Qələbə ilə başa çatan Vətən müharibəmizin birilliyi ərəfəsində Suqovuşan qəsəbəsinə səfər edən müzəffər Ali Baş Komandan İlham Əliyev orada çıxışı zamanı Birinci Qarabağ müharibəsi zamanı əlini günahsız azərbaycanlıların qanına batıran cinayətkar Serjik Sarkisyanın qanlı cinayətləri və xəyanətləri barədə danışdı: "Serjik hərbi cinayətkardır. Bunu təkcə mən demirəm, bölgə ilə tanış olan bütün qərəzsiz və müstəqil politoloqlar, jurnalistlər deyirlər. Britaniyalı jurnalistə verdiyi müsahibədə demişdi ki, Xocalı soyqırımını şəxsən özü törədib. Bunun da izahatını vermişdi ki, azərbaycanlılar bilməlidirlər, Ermənistan ordusu dinc əhaliyə qarşı silah qaldıra bilər. Bu qanlı cinayətkar Serjik Sarkisyandır".

*Ardı 3-cü səh.*

# Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib



*Bax: səh. 2*

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741) 5.44-1-ci bəndində "447.0.1- 447.0.6" rəqəmləri "447.0.1 (malın (xidmətin) istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların aldadılmasına münasibətdə), 447.0.2- 447.0.6" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## Gürcüstanın Prezidenti zati-aliləri xanım Salome Zurabişviliyə

Hörmətli xanım Prezident.

Batumi şəhərində yaşayış binasının çökməsi nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Gürcüstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2021-ci il*

## Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun tikintisi işlərinə başlanılıb

Prezident İlham Əliyevin oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ərazidə genişmiqyaslı tikinti işlərinə start verilib.

*Bax: səh. 6*



## İşğaldan azad edilmiş ərazilərdə iqtisadi və sosial layihələr birgə həyata keçirilir

### Böyük qayıdışdan sonra əhalinin iş yeri və sosial infrastruktur sarıdan problemi olmayacaq



Prezident İlham Əliyevin Tərtər, Bərdə və Cəbrayıl rayonlarına səfəri indiki gərgin, diplomatik oyunların getdiyi bir dönəmə təsadüf etdiyi üçün daha böyük əhəmiyyət daşıyır.

Bildiyimiz kimi, müharibə qurtarandan sonra bir çox ölkələr yeni yaranan reallıqları qəbul etmək istəmir, Azərbaycanı təzədən gərginliklərə çəkmək istəyirlər. Azərbaycan isə bunun əvəzində yeni əməkdaşlıq dövrünün başlandığını bəyan edir. Elə Prezidentin adını çəkdiyimiz rayonlara səfərinin gündəliyi də bunu sübut edir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən yeni tikilən avtomobil yolunun açılış mərasimində iştirak etmişdir. Vurğulayaq ki, bu yolun çəkilməsi, sadəcə, sosial-iqtisadi layihə deyil, o həm də yolumuzun hansı səmtə istiqamətləndiyini göstərir.

*Ardı 6-cı səh.*

# Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoyub, Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış olub, yeni "Hadrut" Qovşaq yarımstansiyasının təməlini qoyub.

Sonra Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, daha sonra onlarla birlikdə Tuğ kəndinə gedib.

*- Səfərdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc olunacaq.*



# Azərbaycanla Slovakiya arasında əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb

Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri İvan Korçokla görüşüb.



Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin Sədri ilə görüşdən məmnunluğunu bildirən İvan Korçok Azərbaycanla Slovakiya arasında əlaqələrin inkişaf perspektivlərindən danışıb. Nazir bu əlaqələrin dərinləşməsində parlament diplomatiyasının rolunu



ifadə edib. O, qanunverici orqanlar arasında əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulayıb, yüksəksəviyyəli səfərlərin əhəmiyyətini qeyd edib. Cari ilin martında Azərbaycana səfərini və keçirdiyi görüşləri xatırlayan İvan Korçok bu cür səfərlərin iki ölkə arasındakı münasibətlərə müsbət töhfə verdiyini diqqətə çatdırıb.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Sahibə Qafarova deyib ki, Azərbaycan ilə Slovakiya arasında uğurlu siyasi münasibətlər digər sahələrdə də əlaqələrin daha da inkişafına imkan verir. Azərbaycan Avropa İttifaqına üzv ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsində, inteqrasiya proseslərinin sürətləndirilməsində maraqlıdır. Azərbaycan Avropa İttifaqına üzv olan ölkələrdən biri kimi Slovakiya ilə münasibətlərin inkişafına önəm verir. Ölkələrimizin bir sıra beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyini xatırladan Sahibə Qafarova parlamentlərarası əlaqələrin daha da inkişafı üçün yaxşı zəmin olduğunu deyib. Milli Məclisin Sədri qeyd edib ki, sivilizasiyaların qovuşduğu Azərbaycan multikultural ölkə kimi tanınır. Burada mövcud olan tolerantlıq digər ölkələr üçün bir nümunədir.

Azərbaycanın 44 günlük Vətən müharibəsi və torpaqlarını işğaldan azad etməsi barədə məlumat verən Milli Məclisin Sədri deyib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulub. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücü ilə təmin edib. Artıq münaqişə keçmişdə qalıb və Azərbaycan işğaldan azad olunan ərazilərinin bərpasına başlayıb.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan işğal dövründə şəhərlərimizi, kəndlərimizi tamamilə dağıdıb və talan edib. Milli Məclisin Sədri Ermənistanın regionda sülhün və təhlükəsizliyin təmin olunmasına qarşı törətdiyi təxribatlar, xüsusilə minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina etməsi haqqında geniş məlumat verib. Bildirib ki, Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtinası beynəlxalq prinsiplərə ziddir.

Milli Məclisin Sədri qeyd edib ki, cari ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Zəngəzur dəhlizinin yaradılmasının çox böyük əhəmiyyəti var. Belə ki, bu dəhlizin yaradılması həm regional kommunikasiyaların bərpasına, həm də regionun inkişafına, sülh və təhlükəsizliyin təmin edilməsinə böyük töhfə olacaq. Ermənistan yeni reallıqları qəbul etməli və buna uyğun davranmalıdır. Azərbaycan hər zaman əməkdaşlığa açıq olan və əməkdaşlığı təşviq edən ölkədir. Azərbaycanın regional münasibətlərdə bugünədək irəli sürdüyü enerji, nəqliyyat və digər əməkdaşlıq platformaları bütün regionun inkişafına xidmət edib.

Söhbət zamanı iki ölkə arasında iqtisadi münasibətlərin daha da genişləndirilməsi, ticarət dövriyyəsinin artması üçün müvafiq tədbirlərin görülməsi, COVID-19 pandemiyasına qarşı mübarizədə atılan addımlar, postpandemiya dövründə əməkdaşlığın daha da dərinləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



# "Sarsılmaz qardaşlıq-2021" birgə əməliyyat-taktiki təliminin döyüş atışlı mərhələsi keçirilib

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda hər iki ölkənin motoatıcı, xüsusi təyinatlı, komando və müxtəlif qoşun növlərinin iştirakı ilə "Sarsılmaz qardaşlıq-2021" birgə əməliyyat-taktiki təliminin döyüş atışlı mərhələsi keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin döyüş atışlı mərhələsindən əvvəl Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev, Türkiyə Respublikasının 3-cü Ordu komandanı, general-polkovnik Yavuz Türkgənci və müxtəlif qoşun növü komandirləri silahlanmaya yeni qəbul edilən hərbi-texniki vasitələrə baxıb, səhra şəraitində müasir cihaz və avadanlıqlarla təmin edilmiş döyüşü idarəetmə məntəqəsi ilə tanış olublar.

Təlimin planı ilə tanışlıq zamanı bildirilib ki, "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə əməliyyat-taktiki təliminə Əlahiddə Ümumqoşun Ordunun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Türkiyə Silahlı Qüvvələrinin bölmələri cəlb edilib. Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsi, yaradılmış birgə qərargahlarda əməliyyatların planlaşdırılması, bölmələrin vahid mərkəzdən idarə olunması, bölmələrlə qərargahlar arasında qarşılıqlı əlaqənin və qoşunların hərtərəfli təminatının təşkili üzrə suallar işlənilib.

Planla tanışlıqdan sonra təlimə start verilib.

Təlimin ssenarisinə əsasən xüsusi təyinatlı həmlə qrupları düşmən müdafiəsinin ön xəttindəki hakim yüksəklikləri ələ keçirir.

Hücumun dərinliyə inkişaf etdirilməsi və düşmən ehtiyatlarının fəaliyyətinin məhdudlaşdırılması məqsədi ilə paraşütlə hava desantı atılır.

Mövqelərini gücləndirmək üçün hərəkətdə olan şərti düşmənin ehtiyat bölməsi həmlə qrupumuz tərəfindən pusquya salınır və düşmənə məxsus zirehli transportyorlar bölmələrimiz tərəfindən qənimət kimi götürülərək əməliyyat rayonundan çıxarılır.

Hücum edən qoşunlarla birgə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bölmələri dövlət sərhədində düşmənin diversiya-kəşfiyyat qruplarının dağıtdığı əraziləri bağlayır, azad olunmuş ərazilərdə dövlət sərhədinin müdafiə və mühafizəsini təmin edir.

Naxçıvan Qarnizonu Qoşunlarının və Türkiyə Silahlı Qüvvələrinin komando birliklərinin tərkibində fəaliyyət göstərən snayper qrupları düşmən müdafiəsinin ön xəttində və yaxın dərinliyində tək hədəfləri aşkarlayaraq məhv edir.

Hakim yüksəklikdə yerləşən düşmənin dairəvi müdafiə qovşaqlarının ələ keçirilməsi üçün xüsusi həmlə qrupları düşməni məhv edir, qənimət kimi əldə edilmiş tank əleyhinə dəzgahlı qumbaraatanların və hava hücumundan müdafiə vasitələrinin atəşləri ilə digər mövqedə yerləşən düşmən bölmələrini zərərsizləşdirir və ən aşağı hündürlükdə uçan düşmən aviasiyasının hücumlarını dəf edir.

Hücum edən qoşunların irəliləməsini təmin etmək üçün Əlahiddə Ümumqoşun Ordunun raket və artilleriya bölmələri tərəfindən düşmənin müdafiə dərinliyindəki ehtiyatlarına, dağ silsilələrində yerləşən taqım və bölük dayaq məntəqələrinə zərbələr endirilir.

Tank və piyadanın döyüş maşınlarından ibarət taktiki qruplar raket və artilleriya bölmələrinin atəş basqınından yararlanaraq dağlıq şəraitdə düşmənin ön xəttindəki atəş vasitələrini məhv edir, hücum edən bölmələrimiz irəlilədikcə yeni atəş mövqelərinə yerdəyişməni həyata keçirir.

Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi hazırlıqlı heyətlərindən və Türkiyə Silahlı Qüvvələrinin komando birliklərinin tərkibindən ibarət hücum qrupu zirehli transportyorların atəş dəstəyi ilə yaşayış məntəqəsinin düşməndən təmizlənməsi fəaliyyətlərini yerinə yetirir.

Yaşayış məntəqəsində döyüşlər zamanı yaralılara ilk tibbi yardım göstərilərək helikopter vasitəsilə təxliyə edilir və eyni zamanda, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin struktur qurumlarının xilasedici alpinistlərindən ibarət təxliyə qrupları dağlıq ərazidən yaralıların təxliyəsini həyata keçirir. Yaralıların təxliyəsini həyata keçirən helikopterin mühafizəsini təşkil edən digər iki helikopter düşmənin dağ silsilələrində yerləşən bölük dayaq məntəqələrinə atəş zərbələri endirir.

Döyüşün müsbət dinamikasından yararlanan xüsusi təyinatlı qruplar yüksək dağlıq və sərt qayalıq ərazilərdə düşmən müdafiəsinin yaxın dərinliyində yerləşən mövqeləri, dağ silsiləsi boyunca hakim yüksəklikləri ələ keçirir və taktiki qrupların hücumunun inkişaf etdirilməsinə əlverişli şərait yaradır.

Bölmələrimizin hücumunu dəstəkləmək üçün düşmənin yaxınlaşmaqda olan ehtiyatlarına və dərinlikdəki hədəflərinə döyüş təyyarələri ilə ən aşağı hündürlükdə zərbələr endirilir.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının bölmələri dövlət sərhədi boyu hakim yüksəklikləri düşmən bölmələrindən azad edir, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlılarından ibarət qruplar tərəfindən mağaralarda gizlənən düşmən qrupları aşkar edilərək zərərsizləşdirilir.

Azad olunmuş ərazilərdə qoşunların hərtərəfli təminatını həyata keçirmək üçün pirotexniki taqım hərəkət yollarında keçidlərin açılmasını, partlamamış sursatların axtarışını və zərərsizləşdirilməsini yerinə yetirir, yanğından mühafizə taqımı azad edilmiş yaşayış məntəqəsində yanğınların lokallaşdırılması və söndürülməsi fəaliyyətini icra edir.

Düşmənin darmadağın edilməsinin başa çatdırılması və hücum edən qoşunların dəstəklənməsi məqsədilə əraziyə taktiki hava desantı endirilir, ələ keçirilmiş dağ aşırımının ən yüksək zirvəsindən Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları asılır.

Sonda döyüş təyyarələri və helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları, eləcə də kanatla desantın daşınması nümayiş etdirilir.

Təlimdən sonra şəxsi heyətlə görüş olub.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikasının 3-cü Ordu komandanı, general-polkovnik Yavuz Türkgənci şəxsi heyəti salamlayıblar.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev birgə təlimin döyüş atışlı mərhələsinin uğurla başa çatması münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təbrikini şəxsi heyətə çatdırıb.

General-polkovnik Kərəm Mustafayev qeyd edib ki, böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ümummilli Lider



Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" fikirlərinə əsaslanan ikitərəfli münasibətlərimiz bu gün ölkə prezidentləri tərəfindən uğurla davam etdirilir, strateji tərəfdaşlığımız daha da möhkəmlənir. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycanın haqq işinə verdiyi siyasi və mənəvi dəstək hər bir vətəndaşımızı qürurlandırır. Hər iki ölkənin silahlı qüvvələrinin məqsədi bölgədə sülhə və əmin-amanlığa nail olmaq, bir-birinə dəstək verməkdir. 2013-cü ildən Naxçıvandan başlayaraq davam edən və bu gün izlədiyimiz birgə taktiki təlimlər hərbi sahədə genişmiqyaslı əməkdaşlığımızın bariz nümunəsidir. Bu gün keçirilən birgə təlimdə də dünyada bənzəri olmayan qardaşlıq münasibətlərinə malik olan hər iki dövlətin ordularının şəxsi heyəti yüksək peşəkarlıq, döyüş əzmi və sarsılmaz qardaşlıq nümayiş etdirdi.

Türkiyə Respublikasının 3-cü Ordu komandanı, general-polkovnik Yavuz Türkgənci 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə hərbçilərimizi təbrik edərək birgə təlimlərin Türkiyə-Azərbaycan qardaşlığının daha bir ifadəsinə çevrildiyini qeyd edib. Təlim zamanı tapşırıqların yüksək peşəkarlıqla icrası nəticəsində hədəflərin sərrast atəşlə məhv edildiyini deyən Türkiyə Respublikasının 3-cü Ordu komandanı birgə təlimin keçirilməsinə göstərilən diqqətə görə minnətdarlıq edib.

Təlimdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıb və şəxsi heyətlə xatirə şəkli çəkdirilib.

Sonda şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# İkiəsrlik erməni faşizminə 44 gündə son qoyuldu

*Əvvəli 1-ci səh.*

## Humanitar atəşkəsləri Ermənistan pozmuşdu

Ötən il sentyabrın 27-də ölkəmizə qarşı yenidən təxribata əl atan Ermənistan elə həmin gündən etibarən hərb meydanında duruş gətirə bilməyərək Azərbaycanın qarşısından biabırcasına qaçmağa başladı.

Düşmənə sarsıdıcı zərbə vuraraq sürətlə torpaqlarını azad edən Azərbaycan Ordusu Ermənistan hakimiyyətini atəşkəs üçün yalvarmağa məcbur etdi.

Ümumiyyətlə, döyüşlər başlayandan sonra vasitəçi dövlətlərin köməyi ilə Azərbaycanla Ermənistan arasında üç dəfə humanitar atəşkəs əldə edildi. Amma 2020-ci il oktyabr ayında üç humanitar atəşkəsə Ermənistanın cəbhədən uzaqda yaşayan dinc sakinlərimizi raket atəşinə tutması ilə son qoyuldu.

Dövlət siyasəti terrora köklənmiş Ermənistan yalvarışları sayəsində razılaşdırılıb elan edilmiş humanitar atəşkəs rejimlərini də özü kobudcasına pozaraq gecə-gündüz yaşayış məntəqələrimizi atəşə tutdu. Vandal erməni silahlıları həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərimizi ağır artilleriya və raket atəşinə tutur, nəticədə içərisində azyaşlıların, qoca və qadınların da olduğu mülki şəxslər yaralanır, həlak olur, evlər və sosial obyektlər dağıdılırdı.

## Mülki şəxslərimiz qatil ermənilərin hədəfində idi

2020-ci il oktyabrın 4-ü səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri münaqişə zonasından kilometrlərlə kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri, qədim tarixə malik, çoxsaylı mədəniyyət obyekti olan, turizm mərkəzi və əhalinin sıx məskunlaşdığı Gəncə şəhərinə qadağan olunmuş silahlardan istifadə etməklə raket zərbələri endirdi.

Həmin gün Ermənistan tərəfindən Cənubi Qafqazın ən böyük su elektrik stansiyası və su anbarının yerləşdiyi Mingəçevir şəhəri də raketlərlə hədəfə alındı. Hərbi əməliyyatların aparıldığı bölgədən çox uzaq məsafədə yerləşən Xızı və Abşeron da eyni gündə Ermənistan tərəfindən hədəf seçildi.

Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri müharibə boyu həmçinin qəsdən və hədəflənmiş şəkildə Beyləqan və Tərtər şəhərlərini, Füzuli rayonunun Horadiz şəhərini, Bərdə, Ağdam, Ağcəbədi, Cəbrayıl, habelə mülki əhalinin sıx məskunlaşdığı digər yaşayış məntəqələrini də ağır artilleriya və raketlərdən istifadə etməklə atəşə tutdular.

Nəticədə dinc əhali arasında çoxsaylı ölən və yaralanan oldu, mülki evlərə, tarixi və mədəni abidələrə, inzibati binalara və digər sosial obyektlərə ciddi ziyan dəydi.

## "...Ermənilərin qəddarlığının həddi-hüdudu yoxdur..."

"...Bu cür vəhşicəsinə həyata keçirilən hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi-hüdudu yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir. Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək! Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi..."

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə - 2020-ci il 28 oktyabrda raket hücumu ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edərkən bildimişdi bu fikirləri.

Birinci vitse-prezident həm də onu vurğulamışdı ki, düşmən anlamalıdır ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz: "Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır".

## "...Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq"

Ermənistanın yuxarıda sadalandığı kimi, əhalimizə qarşı müharibə cinayətləri törədərək, ölkəmizi təxribata cəlb etmək kimi quduz iştahı gözündə qaldı.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev də müharibə ərzində dəfələrlə bəyan etdi ki, biz qisasımızı döyüş meydanında alırıq, biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq.

Oktyabrın 17-də xalqa müraciəti zamanı Prezident İlham Əliyev söylədi ki, Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar: "Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir".

## "Bax, mən buradayam, Suqovuşandayam, mən Şuşadayam, mən Hadrutdayam, mən Xocavənddəyəm, hər yerdəyəm"

2021-ci ilin 27 sentyabrında Vətən uğrunda canlarından keçən müqəddəs şəhidlərimizin Anım Günündə xalqa müraciəti zamanı Prezident İlham Əliyev bir daha bildirdi ki, Biz Qələbəni döyüş meydanında qazandıq: "Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı".

Dövlət başçısı söylədi ki, 44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik: "Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

Oktyabrın 3-də Suqovuşan qəsəbəsindəki çıxışı zamanı da müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha Serjik Sarkisyan başda olmaqla, Ermənistanın faşist xislətli cinayətkarlarına meydan oxuyaraq bəyan etdi ki, bax, mən buradayam, Suqovuşandayam, mən Şuşadayam, mən Hadrutdayam, mən Xocavənddəyəm, hər yerdəyəm: "Siz haradasınız?! Cəhənnəmdə, gorbagor statusla bir yerdə. Vəssalam, qurtardı, bitdi".

2020-ci ilin 27 sentyabrında başlayan və cəmi 44 gün sürərək Azərbaycanın Zəfəri ilə yekunlaşan Vətən müharibəmiz, həm də son iki yüzillik tariximizdə qazandığımız ən parlaq qələbələrlə tarixə həkk olundu. Öz dədə-baba torpaqlarına qayıtmaq istəyən yüzminlərlə Azərbaycan vətəndaşının yurd həsrətinə son qoyuldu. Tarixin müxtəlif kəsimlərində erməni faşizminin qurbanına çevrilən, soyqırımına məruz qalan soydaşlarımızın qisası layiqincə alındı.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# 10-11 oktyabr 2020-ci il
## ZƏFƏR gündəliyi

**Oktyabrın 10-da** gecə hərbi əməliyyatlar müxtəlif intensivliklə davam edir, düşmənə atəş zərbələri endirilir.

Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyası və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib sıradan çıxarılır.

❖ ❖ ❖

Düşmən Xocalı istiqamətindən Hadrutu yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutur.

Həmçinin Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələri düşmən tərəfdən atəşə məruz qalır.

Ordumuz Ermənistan silahlı qüvvələrinə qarşı adekvat tədbirlər görür.

❖ ❖ ❖



Düşmənin ağır döyüş texnikaları bölmələrimizin sərrast atəşi ilə məhv edilir.

❖ ❖ ❖

Oktyabrın 9-da Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan, lakin Azərbaycan Hava Hücumundan Müdafiə sistemləri tərəfindən aşkar edilərək məhv edilən 9K72 "Elbrus" əməliyyat-taktiki raket kompleksinin vurulmasından sonra yerə dağılan qalıqları aşkarlanır.

❖ ❖ ❖

Tərəflər arasında bu gün saat 12:00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərir. Eyni zamanda bir sıra yaşayış məntəqəmiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalır.



Düşmənin bütün hücum cəhdlərinin qarşısı bölmələrimiz tərəfindən uğurla alınır. Ermənistan ordusuna qarşı adekvat cavab tədbirləri görülür.

❖ ❖ ❖

Atəşkəs rejimini pozan düşmənin zirehli texnikası, artilleriya bölməsi, həmçinin düşmənin atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri dəqiq zərbələrlə məhv edilir.

❖ ❖ ❖



Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verir. Dövlət başçısı tərəflər arasında atəşkəsin elan olunması məsələsinə aydınlıq gətirərək deyir: *"Biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Danışıqlar aparılması üçün sabaha razılıq verilib. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır"*.

Prezident qətiyyətlə vurğulayır ki, əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Amma Azərbaycan axıra qədər gedəcək.

Ali Baş Komandan bir daha Ermənistan rəhbərliyinə səslənərək dedi ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Paşinyan Azərbaycana 7 ultimatum təqdim edəndə, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və bu gün Azərbaycan bunu reallaşdırır.

❖ ❖ ❖



Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində hücum etməyə cəhd göstərir.

Düşmən günorta saatlarında Tuğ kəndi istiqamətindən Hadrut istiqamətində, Aragül və Banazur istiqamətlərindən isə Cəbrayıl istiqamətində hücum etməyə cəhd edir.

Bölmələrimizin gördüyü qabaqlayıcı tədbirlər nəticəsində xeyli canlı qüvvə və döyüş texnikasını itirən düşmən geri çəkilməyə məcbur olur. Müdafiəni düzgün təşkil edən bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alır, onu tələyə salaraq darmadağın edir. Döyüş toqquşması nəticədə düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edilir.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdamın kəndlərini və saat 22:30-dan başlayaraq Tərtər şəhərini artilleriya atəşinə tutur.

❖ ❖ ❖



**Oktyabrın 11-də** Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutur. Gecə saat 02:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə ermənilərin atdığı raket nəticəsində yaşayış binası tamamilə dağılır, bina sakinləri dağıntılar altında qalır.

4-ü qadın olmaqla 9 nəfər həlak olur, 35 nəfər yaralanır. Bundan başqa, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyir. Yaralı şəxslərdən biri müalicə olunduğu xəstəxanada vəfat edir.



❖ ❖ ❖

Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edərək dünya birliyini baş verən bu hadisəyə laqeyd qalmamağa çağırır. Qeyd edir ki, beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Birinci vitse-prezident həmçinin xalqa müraciət edir:

*"Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!"*



❖ ❖ ❖

Bütün cəbhə boyu vəziyyət gərgin, sabit olaraq qalır.

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərir. Gecə ərzində düşmənə atəş zərbəsi vurulmaqla onun bütün hücum cəhdlərinin qarşısı alınır.



Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilərək sıradan çıxarılır.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun işğal etdiyi ərazilərdəki əsas qüvvələri və ehtiyatlarına ciddi ziyan vurulub, silah-sursat və yanacaq tükənmək üzrədir. Ermənistan hərbi komandanlığı psixoloji gərginlik, şəxsi heyət isə qorxu içindədir. Erməni əsgərlərin komandirlərinə inamı itir.

Ermənilərin 1-ci, 5-ci və 9-cu motoatıcı alaylarının döyüş mövqelərini özbaşına tərk edən hərbi qulluqçularının sayı kütləvi hal alıb. Hərbi polis bu cür əsgərlərin məcburən səngərlərə geri qaytarılmasında aciz qalır.

Məlumata əsasən canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünə malikdir.

❖ ❖ ❖

Səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayır. Sənəddə qeyd edilir ki, humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Oktyabrın 10-u və 11-ində, müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***









# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Keçmiş döyüşçü, şəhid atası doğma yurduna qalib xalqın nümayəndəsi kimi qayıdıb

Yüz minlərlə məcburi köçkün kimi Eyvaz Tağıyevin də 30 illik Vətən həsrətinə bir il öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, dəmir yumruğu nəticəsində son qoyuldu. O, indi səfalı havası, təmiz suyu, mənzərəli dağları olan yurd yerində rahatlıqla gəzir.



Xocavənd rayon sakini, şəhid atası Eyvaz Tağıyev Hadrutda AZƏRTAC-a bildirib ki, illər sonra doğma torpağına qalib xalqın nümayəndəsi kimi ayaq basıb.

"Bu torpaqlarda qucaq açdığımız ermənilər bizə qarşı məkrli planlarını işə saldılar. Sovet dövründə havadarları sayəsində Xocavənddə ermənilərin sayı artırıldı. Hələ Stalinin dövründə ermənilər Xocavənd rayonunun inzibati ərazisində yerləşən kəndlərimizi birləşdirərək Azərbaycan kəndlərinin sayını azaltmağa başlamışdılar. Həmin proses 20-30 il davam etdi. Təşkilatlanan ermənilər 1988-ci ildən başlayaraq torpaq iddiasına qalxdılar. Məqsədləri isə Qarabağ torpaqlarını Ermənistana birləşdirmək idi", - deyə Eyvaz Tağıyev vurğulayır.

O, ermənilərin dinc əhaliyə qarşı törətdiyi qırğınlardan danışır, həmin faciəvi səhnələri təkrar yada salır: "İlk olaraq Hadrut qəsəbəsinin ətrafında azərbaycanlıların yaşadığı kəndlər yandırılmağa başlanıldı. Əhali digər ərazilərə köçməli oldu. 1992-ci il fevralın 17-də isə xalqımız Qaradağlı faciəsini yaşadı. Həmin vaxt biz sakinlər özünümüdafiə dəstələri yaratsaq da, düşmən 366-cı motoatıcı alayın hərbçilərinin dəstəyi ilə böyük qırğın törətdilər. Qətliam zamanı körpə, qadın, qoca demədən Qaradağlı sakinləri qətlə yetirildi, əsir götürüldü. Əsir götürdükləri soydaşlarımızı da sonradan öldürüb silos quyusunda basdırdılar".

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı digər məcburi köçkünlər kimi Eyvaz Tağıyevin də doğma yurduna qayıtmaq ümidini artırdı. Ulu Öndərin rəhbərliyi ilə güclü ordu quruculuğu siyasəti aparıldı, ölkəmizin iqtisadiyyatı inkişaf etdi. Bunun nəticəsini Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən il Vətən müharibəsində gördük. Bu müharibədə böyükdən kiçiyə hər kəs öz Ali Baş Komandanının ətrafında dəmir yumruqtək birləşərək düşmənin başını əzdi.

Həmsöhbətimiz deyir ki, Azərbaycan Ordusunun Vətən müharibəsində uğurlu əməliyyatlarından biri də Hadrut əməliyyatıdır. Bu əməliyyatdan sonra, ötən il oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımıza daha bir xoş xəbəri çatdırdı. Bildirdi ki, Hadrut qəsəbəsi, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndləri işğaldan azad olunub. Ermənistan rəhbərliyi isə Hadrutun Azərbaycan əsgəri tərəfindən azad olunmasını qəbul edə bilmədiklərinə görə, həmin günlərdə yalanlar uydurmaqla məşğul idilər. Guya Hadrutun onların nəzarəti altında olduqlarını deyirdilər. Halbuki Hadrut administrasiyasının binası üzərində Azərbaycan bayrağı dalğalanırdı.

"44 günlük müharibədə ötən 30 ildə böyüyən vətənpərvər gənclərimiz tarix yazdılar. Ermənilərin öz havadarlarının köməyi ilə işğal etdiyi torpaqları onun sahibləri, azərbaycanlılar cəmi 44 günə azad etdi. Belə igidlərdən biri də mənim övladım Əlzamin Tağıyevdir. Mən bu gün Hadruta keçmiş döyüşçü və şəhid atası kimi qürurla gəlmişəm. Bu torpaqların azad edilməsi uğrunda Əlzamin kimi minlərlə qəhrəmanımız can verib. Biz bu sevinci həm də şəhidlərimizə, qazilərimizə borcluyuq. Onların sayəsində Xocavəndə, Hadruta gələ bilirik. 30 il ağlayıb-sızladıq, artıq bəsdir. Bundan sonra hər il oktyabrın 9-nu böyük sevinclə Hadrutun azad olunması kimi qeyd edəcəyik", - deyə Eyvaz Tağıyev vurğulayıb.

Səfər zamanı yolboyu azad olunan ərazilərdə aparılan yenidənqurma işləri də gözümüzdən qaçmadı. Gördüklərimiz bu yerlərdə həyatın öz axarına düşməsinin müjdəçisidir.

## Hadrutun azad edilməsi ordumuzun Vətən müharibəsində keçirdiyi ən uğurlu hərbi əməliyyatlardan biridir

"Oktyabrın 9-da Hadrut qəsəbəsinin işğaldan azad olunması Cəbrayıl rayon mərkəzinin və Cəbrayıl rayonu ilə Hadrut arasındakı bir neçə kəndin düşməndən təmizlənməsindən sonra mümkün oldu. Hadrutun azad edilməsi Ordumuzun Vətən müharibəsində keçirdiyi ən uğurlu hərbi əməliyyatlardan biri hesab olunur".



Bunu hərbi ekspert Ədalət Verdiyev AZƏRTAC-a deyib.

Hərbi ekspert bildirib ki, qəsəbənin azad edilməsindən iki gün əvvəl Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri düşmən müdafiəsinin boşluqlarından istifadə edərək onun arxasına keçib, Hadrutun ətrafında yerləşən yüksəkliklərdə mövqe qurublar. Ermənistan silahlı qüvvələri bundan cəmi bir gün sonra xəbər tutmuşdular. Onlar xəbər tutduqdan sonra isə oktyabrın 8-də səhər saatlarından Hadrut üzərinə hücum başlamışdı. Hücum zamanı həmin yüksəkliklərdə yerləşən xüsusi təyinatlılarımız həm artilleriyanı, həm pilotlu və pilotsuz aviasiyanı düşmən hədəflərinə, mövqelərinə atəşin nizamlanması tapşırıqlarını uğurla yerinə yetiriblər.

Ədalət Verdiyev vurğulayıb ki, Hadrutda erməni yalanlarına inanan yerli əhali vaxtında oradan çıxmamışdı. Lakin Azərbaycan tərəfi oradakı mülki əhalinin təhlükəsizliyinə kifayət qədər həssaslıqla yanaşaraq, onların təhlükəsiz şəkildə ərazidən çıxması üçün şərait yaratdı. Hadrutun işğaldan azad edilməsinin bir çox mühüm əhəmiyyəti var idi. Onlardan biri o idi ki, Hadrut Qarabağın dağlıq hissəsinə aiddir və dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan əsgərinin ayağı Hadrut azad olunanadək o torpaqlara dəyməmişdi. Digər tərəfdən, Hadrut üzərində son otuz ildə ilk dəfə Azərbaycan bayrağı məhz oktyabrın 9-da dalğalandı.

"Əslində düşmən Hadrut istiqamətində Azərbaycan Ordusunun hücumunu gözləmirdi. Cəbrayılın azad olunmasından sonra artıq ordumuzun hissə və bölmələri Füzuli rayonunun Əbdürrəhmanlı kəndində yerləşməklə mövqelərini həmin rayonun mərkəzinin üç kilometrinədək irəlilətməyi bacarmışdı. Belə olan halda düşmən əsas qüvvələrini Füzuli istiqamətində cəmləşdirmişdi. Amma bu, o demək deyildi ki, Hadrut tərəfi tamamilə boş qalmışdı. Bu, Ordumuzun bilərəkdən atdığı addım idi. Füzuli istiqamətinə düşmənin mühüm qüvvələrini cəlb edərək və əsas zərbəni Hadrut istiqamətinə endirərək mühüm yüksəklikləri ələ keçirməklə həm Şuşaya gedən yol, həm Füzuli, Zəngilan, Qubadlı, həm də Xocavənd istiqamətlərində ordumuzun hücumlarını genişləndirmək üçün Hadrut qəsəbəsinin ətrafındakı yüksəkliklərdən platsdarm kimi istifadə olunması çox vacib idi", - deyə hərbi ekspert əlavə edib.

Ə.Verdiyev bildirib ki, düşmənin çoxlu sayda texnikasını məhv edən Ordumuz müxtəlif texnikalar ələ keçirməklə ondan sonrakı döyüşlərdə işğalçı orduya qarşı istifadə etdi. Hadrutun azad edilməsi Ordumuzun hücum əməliyyatları zolağını kifayət qədər genişləndirməsi ilə nəticələndi. Cəbrayıl, Füzuli, Xocavənd rayonlarında hücumun sürəti artdı. Qüvvələrimizin bir hissəsini isə Tuğ, Çanaqçı, Sığnaq, Daşaltı, Şuşa istiqamətinə yönləndirə bildik. Bu döyüş əməliyyatlarının ermənilərin qeyd-şərtsiz iddia etdiyi Qarabağın dağlıq hissəsinə daxil olan ərazinin Azərbaycanın nəzarətinə keçməsi Ermənistanın uydurduğu "Arsax" və "böyük Ermənistan" layihələrinin aradan qalxması ilə nəticələnəcəyi artıq şübhə doğurmurdu. Məhz Hadrutun azad edilməsi xalqımızın yalnız ətraf rayonları deyil, o cümlədən Qarabağın dağlıq hissəsinin də azad edilməsi uğrunda döyüşlərə və bu döyüşlərin qələbə ilə nəticələnəcəyinə ümidini artırdı".

Ekspert qeyd edib ki, döyüş meydanında Ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən Azərbaycanın ətraf rayonlarını, mülki əhalinin yaşadığı əraziləri atəşə tuturdu. Lakin Azərbaycan xalqı bu zərbələrdən və itkilərdən sarsılmadı. Əksinə, xalqımız Prezidentimizin ətrafında daha sıx birləşdi, sarsılmaz birlik nümayiş etdirdi. İstər ölkə daxilindən, istərsə də xaricdən göndərilən məktub və müraciətlərdə müharibənin tam Qələbə əldə olunana qədər davam etməsi üçün müraciət olunurdu.

"Hadrutun azad edilməsi və orada yerləşən təminat-təchizat bazasının Azərbaycan Ordusunun nəzarətinə keçməsi cənub istiqamətindəki Ermənistan qoşunlarının ehtiyat silah-sursatla təchizatında problemlər yaratmağa başladı. Ümumiyyətlə, Hadrutun Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçməsi Ermənistan cəmiyyətində çalxalanma yaratdı. Digər tərəfdən, bu, Ermənistan ordusunun cəbhənin digər istiqamətlərində müqavimət gücünün zəifləməsinə və ordumuzun həmin əraziləri daha az itki və yüksək sürətlə azad etməsinə şərait yaratdı", - deyə Ə.Verdiyev vurğulayıb.



## Şuşaya asmaq üçün götürdüyü bayrağa bükülən şəhid Əli Məmmədov

Əli Məmmədov hərbiyə olan sevgisi səbəbindən təhsilini yarımçıq qoyaraq həqiqi hərbi xidmətə yollanır, sonra isə müddətdən artıq həqiqi hərbi qulluqçu kimi xidmətini davam etdirir. Bir hərbçi kimi ötən il iki vacib sınaqdan keçir, hər ikisini üzüağ tamamlayır. Lakin Vətən sevgisi Əlini ən uca zirvəyə - şəhidlik zirvəsinə yüksəldir. AZƏRTAC Vətən müharibəsi şəhidinin şərəfli ömür yolunu təqdim edir.

Məmmədov Əli Əvəz oğlu 1998-ci il sentyabrın 1-də Kürdəmir rayonunun Atakişili kəndində anadan olub. Əli evin sonbeşiyi, dörd bacının tək qardaşı idi. 2004-cü ildə Kürdəmir rayon Vüqar Qurbanov adına tam orta məktəbə gedən Əli 2013-cü ildə 9-cu sinfi tamamlayaraq Bakı Neft Energetika Kollecinə daxil olub. Kolleci bitirməsinə üç ay qalmış 2017-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidməti başa vurduqdan sonra hərbiyə olan sevgisi sayəsində bu sahədə xidməti davam etdirib. Kiçik çavuş Əli Məmmədov ötən il iyul ayında Tovuz rayonu istiqamətində dövlət sərhədimizi pozaraq təxribat törədən düşmənin ağır itkilər verərək geri oturdulması əməliyyatlarında iştirak edib. Vətən müharibəsi isə onun bir hərbçi kimi ən əsas və son sınağı oldu. Müharibənin ilk günündən başlayaraq xüsusi təyinatlı qüvvələrin tərkibində kəşfiyyat bölüyündə 40 günə yaxın döyüşüb. Murovdağ yüksəklikləri, Tərtərin Suqovuşan qəsəbəsi və Talış kəndi, Füzuli, Ağdərə, Şuşa, Kəlbəcərdə gedən döyüşlərdə iştirak edib. Əli Məmmədov noyabrın 4-də Kəlbəcərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Bacısı Nərmin Məmmədova yeganə qardaşının itkisinə dözməyin çətin olmasına baxmayaraq, dik dayanmağı bacarır və Əli ilə fəxr edir. Deyir ki, qardaşım da düşmən baxıb sevinməsin deyə bizim acımızı içimizdə çəkməyimizi, mətanətli olmamızı istəyərdi.

O, müharibə dövründə qardaşı ilə telefon danışıqlarını belə xatırlayır: "Müharibə vaxtı Əli bizimlə telefonla danışanda bir dəfə də olsun şikayətlənmirdi, hər şeyin yaxşı olduğunu bildirirdi. Ona deyirdim ki, necə hər şey yaxşıdır yaxınlardan, ətraflardan gündə şəhid xəbəri gəlir, xəstəxanalar yaralılarla doludur. Deyirdi ki, anaya heç nə demə. Heç ağlımıza da gəlmirdi ki, ona nəsə ola bilər. O, çox xeyirxah və ürəyitəmiz idi, heç vaxt birinci özünü düşünməzdi. Mən Kürdəmir Rayon Mərkəzi Xəstəxanasında işləyirəm. Hər gün yaralı gətiriləndə onlarla maraqlanırdım. Həmin yaralılar arasında Əlinin döyüş yoldaşları da olurdu. Əli zəng edib deyirdi ki, döyüş yoldaşlarıma yaxşı baxın, onlara ürəkləri istəyən yeməkləri bişirib aparın. Odun-alovun içində olsa belə, silahdaşlarını düşünürdü. 40 gün anamla birgə onun döyüş yoldaşlarına yemək, şirniyyat apardım. Ta ki Əlinin şəhid xəbəri gələnə qədər. Ondan sonra sanki dünya gözümdə başqalaşdı, hər şeyi unutdum. Həm də ürək edib döyüş yoldaşlarının yanına girə bilmədim. Əlinin şəhid olduğunu onlara deyə bilmədim.

Son dəfə bizimlə noyabrın 2-də əlaqə saxladı. Qardaşımın səsini son dəfə onda eşitdim. Anamız ilə danışanda deyib ki, şəhidlik gözəldir, uca zirvədir. Anamız isə onu sağ-salamat gözlədiyini bildirib. Sanki qardaşıma şəhadət şərbətini içəcəyi əyan olubmuş. Ondan sonra Əlinin telefonuna zəng çatmadı. Çox narahat olsaq da, anamıza deyirdim ki, yəqin telefonun batareyası bitib, imkan olanda özü zəng edəcək. Təəssüf ki, ondan sonra gələn zəng bizə yalnız bəd xəbər verdi: Əli şəhid olmuşdu".

Şəhidin bacısı bildirib ki, qardaşının döyüş yoldaşları onun qəhrəmanlığı, qorxmazlığı haqqında çox danışırlar: "Döyüş yoldaşları deyirlər ki, qorxu bilmirdi, ancaq irəli gedirdi. Gecə təkbaşına kəşfiyyata gedir, vacib məlumatlar gətirirdi. Yorulmaq bilmədən, dayanmadan döyüşüb. Ən ağır döyüşlərdə iştirak edib, düşmənin xeyli sayda canlı qüvvəsini, texnikasını məhv edib. 3-4 şəhid, yaralı döyüş yoldaşlarını birdən daşıyırmış. O zaman şəhid olan komandirinin neytral zonada qalan nəşini götürərək ailəsinə təhvil verib. Dəfələrlə pusquya düşmüş döyüş yoldaşlarını xilas edib. 87 nəfərlik dəstəni təkbaşına ölümdən qurtarıb. Xəstə olmasına, hərarəti 39 dərəcəyə yüksəlməsinə baxmayaraq, həkimlər onu saxlaya bilməyiblər. Son dəfə noyabrın 4-də Kəlbəcərin Qaranlıq meşə ərazisində gedən döyüşlər zamanı yaralı və şəhid yoldaşlarını döyüş meydanından çıxaran zaman yaxınlığına düşən minaatan mərmisinin qəlpəsi ürəyinə dəyib. Yaralansa da şəhidi kürəyindən yerə qoymayıb. Yaralı halda onu çıxara bilib. 45 dəqiqəyə yaxın həyatda qalan Əli şəhidlik zirvəsinə ucalıb. Qardaşım şəhadətə belə ölümə, düşmənə meydan oxuyaraq yüksəlib. Noyabrın 5-də Kürdəmir rayon Şahsevən kənd qəbiristanlığında dəfn olunub. Üzərində Şuşaya sancmaq üçün bayraq saxlayırmış. Lakin özü həmin bayrağa bükülərək gəldi...

Bir bacı üçün qardaşını itirmək çox ağır dərddir. Bacılar qardaşlarının ayağına daş dəyməsinə belə razı deyillər. Lakin Əli bizim ürəyimizə böyük dağ çəkdi. Nə qədər çətin olsa da, onunla fəxr edirəm. Bizə özündən böyük ad, şərəf miras qoyub getdi".

## Azərbaycan Ordusu Hadrutda hərb tarixinin ən çətin əməliyyatlarından birini həyata keçirib

Bu gün Xocavənd rayonunun Hadrut qəsəbəsinin rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsindən bir il ötür. Ötən il məhz bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin Hadrut qəsəbəsi və 8 yaşayış məntəqəsinin azad olunduğunu elan etməsi televiziya ekranları qarşısına toplaşan milyonlarla azərbaycanlını sevincə qərq etdi.

AZƏRTAC-ın müxbirləri xalqımıza bu möhtəşəm Zəfəri bəxş edən Azərbaycan Ordusunun hərbi qulluqçularının bir neçəsi ilə elə Hadrutda həmsöhbət olublar. Onların hər biri "Bu torpaqları düşmən əsarətindən xilas etmək bizim borcumuz idi. Məkrli düşməndən qisasımızı, şəhidlərimizin qanını döyüş meydanında aldıq. Xalqımıza sevinc və Qələbə bəxş etməkdən qürurluyuq" deyib, şəhid olan döyüş yoldaşlarını ehtiramla anıblar.

Hadrut əməliyyatında iştirak edən əsgər və zabitlərimiz döyüşləri belə xatırlayırlar.

**Baş leytenant Ülvi Səfiyaroğlu:** "Ötən il sentyabrın 27-də Füzuli uğrunda döyüşlərə başladıq. Oktyabrın 7-dən Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində döyüşlərimiz davam edirdi. Döyüşlər xüsusi təyinatlı qüvvələrlə birlikdə aparılırdı. Biz onlara artilleriya dəstəyi göstərir və daha rahat irəliləmələrinə şərait yaradırdıq. Hadrut işğaldan azad olunduqdan sonra şəxsi heyətin əhvali-ruhiyyəsi daha da yüksəldi. Ümumilikdə isə rayonlar, kəndlər, yaşayış məntəqələri düşmən tapdağından qurtulduqca daha da ruhlanır və inamla irəliləyirdik. İşğaldan azad olunmuş torpaqlarda hərbi xidməti hazırda canla-başla davam etdiririk. Xalqımızı əmin etmək istəyirik ki, erməni işğalçılarının ayağı bir də bu torpaqlara dəyməyəcək".

**Mayor Filman Məsimov:** "Hər zaman Ali Baş Komandanın əmrinə müntəzir idik. Çoxdan gözlənilən məqam ötən il sentyabrın 27-də yetişdi. Həmin gün səhər saatlarında düşmənin genişmiqyaslı təxribatının qarşısının alınması məqsədilə bütün cəbhəboyu əks-hücum əməliyyatına başlamaq əmrini aldıq. Bu, bizi sevindirdi. Verilən əmrdən sonra topçu kimi öz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışdıq. Xüsusi təyinatlı qüvvələri atəş dəstəyi ilə təmin etmək rəhbərlik etdiyim artilleriya bölməsinə həvalə olunmuşdu və əlimizdən gələni edirdik. Hadrut uğrunda gedən döyüşlər elə də asan keçmədi. Hakim yüksəkliklərdə mövqe tutan ermənilər qoşunlarımızın irəliləməsinə hər vəchlə mane olmağa çalışırdılar. Lakin bunu bacarmadılar. Çox keçmədən Azərbaycan Ordusu Hadrutda üçrəngli bayrağımızı qaldırdı".

**Polkovnik-leytenant Firuz Bədəlov:** "Biz Hadruta daxil olanda ordumuzun bölmələri artıq qəsəbəni işğalçılardan təmizləmişdilər. Bizə Azərbaycan Ordusunun digər bölmələrindən hakim yüksəklikləri təhvil almaq, onların mühafizəsini və müdafiəsini təşkil etmək tapşırılmışdı. Hadrutdan əlavə, Tuğ kəndində də bölmələrimiz yerləşdi və hakim yüksəkliklərin mühafizə və müdafiəsini təşkil etdik".



**Xüsusi təyinatlı qüvvələrin nümayəndəsi:** "Hadrut çox yüksəklikdə yerləşdiyindən dağlarda döyüşmək bir qədər çətinlik yaradırdı, buna baxmayaraq, qoşunlarımız daim irəliyə gedirdi. Ali Baş Komandanın bizə olan inamı, xalqımızın etimadı hər birimizə güc verirdi. Silahdaşlarımın döyüşkənliyini, torpaqlarımızı azad etməyin sevincini unutmayacağam. Hər döyüşdən qalib ayrıldıqca sevinirdik ki, ərazi bütövlüyümüz uğrunda döyüşmək və xalqımıza qürur yaşatmaq bizə qismət oldu. Bizə olan etimadı doğrultduq və torpaqlarımızı işğaldan azad etdik".

**Vətən müharibəsi qazisi, gizir Qorxmaz Teymurlu:** "Öz qrupumuzla birlikdə düşməni pusquya salaraq çoxsaylı texnikasını şəxsi heyəti ilə birlikdə partladaraq məhv etdik, onların 022 xüsusi təyinatlı qüvvələrinin dörd şəxsi heyətini zərərsizləşdirdik. Üç "KamAZ"a doluşmuş erməni əsgərləri Hadrut yolu ilə qaçırdı, onları da vurduq. Mən xüsusi təyinatlı bölükdə döyüşmüşəm. Burada döyüş yoldaşlarımızla birlikdə çətin günlər yaşamışıq. Bir ildən sonra bu torpaqlara yenidən ayaq basmaq isə tamam başqa hissdir. Hadrutda gedən döyüşlər indiki kimi yadımdadır. Şəhid olan və yaralanan döyüş yoldaşlarımı, onların qəhrəmanlığını heç vaxt unutmayacağam.

Döyüşlərdə üç dəfə yaralandım: Füzulidə, Hadrutda və Qubadlıda. İki dəfə döyüşləri davam etdirməyə özümdə güc tapsam da, sonuncu dəfə səhhətim buna imkan vermədi, çox təəssüfləndim. Lakin sevinirəm ki, Ordumuz düşmənə heç zaman unutmayacağı dərs verdi və Vətən müharibəsi möhtəşəm Zəfərlə bitdi".

**Hərbi ekspert, ehtiyatda olan zabit Azər Bayramov** Hadrut əməliyyatının əhəmiyyətini şərh edərək deyib: "Hadrutun azad edilməsi Vətən müharibəsində dönüş nöqtəsi oldu. Hadrut çox strateji əhəmiyyətə malik, həm də Ordumuzun növbəti əməliyyatları yerinə yetirməsi üçün əsas açar yerlərdən biri idi. Azərbaycan Ordusu hərb tarixinin ən çətin əməliyyatlarından birini - sızma və dərinlikdə əməliyyatlarını icra edərək Hadrutu işğaldan azad etdi. Bu, Füzuli rayonunda yerləşən düşmən qüvvələrinin, onlara gələn təchizat və digər əlaqə yollarının kəsilməsində və mühüm strateji nöqtələrin ələ keçirilməsində önəmli rol oynadı. Hadrut azad ediləndən sonra, demək olar ki, Ermənistan ordusunda çox sürətli şəkildə pərakəndəlik və fərarilik başladı, döyüş ruhu sındı. Separatçı rejimin başçısı Araik Harutyunyan kiçik qüvvələr yığaraq Hadrutun yenidən zəbt olunması üçün hücumlar təşkil edirdi. Ancaq onlar heç bir effekt vermədi. Azərbaycan Ordusu öz qalibiyyətli yürüşünü davam etdirdi və düşməni digər rayon, şəhər və yaşayış məntəqələrimizdən də qovub çıxardı".

Həmsöhbətlərimiz 30 ilə yaxın davam edən işğala 44 gün ərzində son qoyan qəhrəman hərbçilərimizindən sadəcə bir neçəsi idi. "Məğlubedilməz erməni ordusu" mifini dağıdan, düşmənə meydanda əsl hərb və kişilik dərsi verən şəhid və qazilərimiz tariximizin şanlı səhifələrinə və xalqın yaddaşına əbədi həkk olunublar. Zəfər tariximizin hər səhifəsini vərəqlədikcə qürur duyuruq...

# Aida İmanquliyeva - Azərbaycan şərqşünaslığının şöhrətli siması

Tanınmış şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva keçən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan ərəbşünaslıq elminin nüfuzunu artıran elmi əsərlər müəllifi kimi tanınmağa başlamışdır. O, eyni zamanda ərəbşünaslıq sahəsində Azərbaycanın qadın alimi kimi şöhrətlənmişdir.



Professor Aida İmanquliyeva yeni ərəb ədəbiyyatının elə bir sahəsi ilə məşğul olmuşdur ki, bu sahə dünya şərqşünaslığında çox az öyrənilmiş və mübahisə doğuran bir sıra məsələlər tədqiqatçıların diqqətindən kənarda qalmışdı. Azərbaycan alimi yeni tədqiqatları ilə ərəb ədəbiyyatının xüsusi bir dövrünü təşkil edən məhcər ədəbiyyatını (ərəb ölkələrindən kənarda, əsasən Amerika qitəsinə və Avropaya köçmüş şair və ədiblərin irsi) elmi-nəzəri və filoloji aspektdə öyrənməklə dünya şərqşünaslığına yeni töhfə verdi. “Yeni ərəb ədəbiyyatı korifeyləri” adlı sanballı tədqiqatında alim ədəbiyyatın göstərilən dövrü ilə yanaşı, Şərq-Qərb və ərəb-Avropa ədəbi əlaqələrinin təhlili və dəyərləndirilməsində yeni və maraqlı elmi nəticələr əldə etmişdir.

Yeni dövr ərəb məhcər ədəbiyyatı və onun Qərblə əlaqələrinin özəlliklərinin ilk dəfə olaraq ədəbi-nəzəri mühakimələr və bədii mətnlər əsasında öyrənilməsi professor Aida İmanquliyevaya məxsusdur. Azərbaycan aliminin ərəb məhcər ədəbiyyatı haqqında tədqiqatları ərəb-Avropa və Amerika ədəbi əlaqələrinin obyektiv elmi əsaslarla və geniş şəkildə öyrənilməsi sahəsində yeni bir mərhələdir. O, özündən əvvəl aparılmış tədqiqatları nəzərdən keçirmiş, Avropa, rus, sovet və ərəb alimlərinin məhcər ədəbiyyatı ilə bağlı araşdırmalarındakı dəyərli fikirləri xüsusi qayğı ilə öyrənmişdir. Onun tədqiqatlarında Cübran Xəlil Cübran, Mixail Nueymə, Əmin ər-Reyhani və İlya Əbu Madiyə, Qərb romantik məktəbinin təsirini şişirtməyən akademik İ.Y.Kraçkovskinin müəyyənləşdirdiyi metodoloji müddəalar əsas götürülür. “Yeni ərəb ədəbiyyatı korifeyləri” kitabında Aida İmanquliyeva “Suriya-Amerika məktəbi”nin nümayəndələri Cübran, ər-Reyhani və Nüaymənin yaradıcılığının təkamülünü Qərb romantizmi və rus tənqidi realizminin təsiri altında tədqiq edir. Bu, eyni zamanda yeni ərəb ədəbiyyatı ilə dünya ədəbiyyatının müxtəlif cərəyanlarının və bədii metodlarının qarşılıqlı əlaqəsi tarixinin tədqiqidir.

Professor Aida İmanquliyeva ərəb-Avropa ədəbi əlaqələrinin tarixinə nəzər yetirir, maarifçilik dönəmində onun vəziyyətini təhlil edir və romantizm ədəbi cərəyanının təsirini müəyyənləşdirir. O, ədəbi əlaqələri milli özünəməxsusluq və qarşılıqlı ədəbi təsirlər problemi müstəvisində öyrənir.

Cübran irsinin tədqiqində alim onun yaradıcılığının ilk dövründə müşahidə edilən sentimentalizmi “Banlı Marta”, “Hanili Varda” və “Qırılmış qanadlar” povestləri əsasında açıb göstərir. Yazıçı tərəfindən ingilis və Amerika romantizm metodunun mənimsənilməsi “Göz yaşı və təbəssüm”, “Tufanlar” və “Peyğəmbər” əsərinin təhlili işığında verilir.

Professor Aida İmanquliyevanın tədqiqatında Əmin ər-Reyhani yeni ərəb ədəbiyyatında romantizmin təşəkkülündə fəal rolu olan bir ədib kimi təqdim edilir. Ər-Reyhani ərəb romantik ədəbiyyatının janr tərkibinə, mövzu seçiminə və poetikasına gətirdiyi rəngarəngliyi ilə seçilir. Onun yaradıcılığında romantizm milli xarakter kəsb edir. Ər-Reyhani romantizminin özünəməxsusluğu onun yüksək sənətkarlıqla yazdığı əsərlərində, o cümlədən “Hərəmxana divanlarından kənarda” povestində əks olunmuşdur.

Görkəmli tədqiqatçı ərəb məhcər ədəbiyyatının bariz nümayəndəsi Mixail Nüaymənin əsərlərindəki Qərb ədəbi təsirlərini daha geniş şəkildə öyrənmiş və onların rus ədəbiyyatı çərçivəsində olduğunu müəyyənləşdirmişdir. O, Nüaymənin ədəbi zövqünün formalaşmasında V.Belinskinin bədii-estetik konsepsiyasının, L.Tolstoyun fəlsəfi-dini və humanist ideallarının, İ.Turgenev və A.Çexov realizminin rolunu açır. İrəli sürülən fikirlərin şərhi konkret bədii əsərlərin müqayisəli təhlili əsasında aparılır.

Müqayisəli ədəbiyyatşünaslığın obyektiv tələblərindən çıxış edən professor Aida İmanquliyeva məhcər şairlərinin ədəbi-bədii zövqünün formalaşmasında yeni ideya və yeni poetik formalara malik olan Qərb ədəbi-mədəni irsinin rolunu göstərir. Onun qənaətinə görə, “Suriya-Amerika məktəbi”nin təmsilçiləri yeni ədəbi üslubun yaradıcıları kimi ərəb klassiklərinə qayğı ilə yanaşmış, arxaik sözlərdən, ağır sintaktik birləşmələrdən, yorucu ritorik ifadələrdən azad olmağa çalışmışlar. Cübran, ər-Reyhani və Nüaymə ingilis və Amerika romantizmi, rus tənqidi realizmi üçün səciyyəvi olan ideya və üslublardan bəhrələnmiş, fərdi yaradıcı formaya mənsub bədii metodlardan istifadə etməklə yeni poetik janrların (əş-şi'rul-mənsur, esse, etüd) inkişafını təmin etmişlər. Onların yaradıcılığında Qərb romantizmi yaradıcı bir metod kimi özünü göstərir. Cübran və ər-Reyhani bu metodu ərəb şeiri ənənələri əsasında zənginləşdirmişlər. A.İmanquliyevanın qənaətinə görə, ərəb ədəbiyyatının ənənələri və Qərb romantizminin mürəkkəb sintezi nəticəsində məhcər şairlərinin əsərlərində bu ədəbi əlaqəyə Şərq-Qərb mədəniyyətlərinin qarşılıqlı təsiri və dünya ədəbi prosesində ümumbəşəri problemin qoyuluşu səviyyəsinə yüksəlməyə imkan verilmişdir.

Professor Aida İmanquliyeva məhcər ədəbiyyatının təşəkkül tapdığı Qərb ədəbi mühitinin modernist cərəyanlarının bütün yönlərini və bu mühitdə yaşayan ərəb şair və yazıçıların yaradıcılıq özəlliklərini öyrənməyə nail olmuşdur. Transendentalizmdə ərəb poetik ənənələrinə məxsus əlamətlər, ərəb romantizminin fəlsəfi və didaktik mahiyyətinin qabarıq şəkildə özünü göstərməsi, habelə başqa cizgilər onun tədqiqatlarında izahını tapmışdır.

Azərbaycan və dünya ərəbşünaslığında professor A.İmanquliyevanın xidmətləri böyük olduğu kimi, yeni keyfiyyətləri ilə də fərqlənir. Alim yeni ərəb ədəbiyyatı korifeylərinin yaradıcılığı əsasında bəşər mədəniyyətinin birliyinin müstəsna əhəmiyyətə malik olduğunu göstərmişdir.

Azərbaycan aliminin araşdırmaları dünya şərqşünaslıq elmində və ölkəmizdə böyük maraq doğurmuşdur. AMEA- nın müxbir üzvü Səlahəddin Xəlilov haqlı olaraq Aida İmanquliyevanın adını Azərbaycanda məşhur olan şərqşünasların sırasına daxil edir. Akademik Vasim Məmmədəliyev qeyd edir ki, Aida xanım yeni və müasir ərəb ədəbiyyatının ən nüfuzlu tədqiqatçılarından biri kimi şərqşünaslıq tarixinə əbədi daxil olmuş azsaylı mütəxəssislərdəndir. Rus şərqşünaslığını təmsil edən akademik Aleksandr Kudelin çıxışlarında və yazılarında Azərbaycan aliminin dünya şöhrətindən bəhs edir. Onun əsərləri mütəxəssislərin stolüstü kitablarına çevrilmişdir. Bu baxımdan akademik Gövhər Baxşəliyeva və professor Vilayət Cəfərov Aida İmanquliyevanın elmi irsinin böyük hissəsini toplayıb elmi ictimaiyyətə çatdırmaqla xeyirxah iş görmüşlər.

Professor Aida İmanquliyevanın yeni ərəb ədəbiyyatında açdığı istiqamət sonrakı nəsillər tərəfindən də davam etdirilmişdir. Məhcər ədəbiyyatının öyrənilməsində onun qənaət və nəticələrinə əsaslanan Azərbaycan alimləri - filologiya elmləri doktoru Bəsirə Əzizəliyeva, fəlsəfə doktorları Mahir Həmidov, Fatma Kərimova, Xuraman Əliyeva tədqiqatlarında yeni materiallardan istifadə etməklə araşdırmalarını dərinləşdirməyə çalışmışlar.

Professor Aida İmanquliyevanın elmi-təşkilati fəaliyyəti nəticəsində Azərbaycan şərqşünaslıq elmində bir çox uğur qazanılmışdır. Onun AMEA Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bir sıra beynəlxalq simpozium və konfranslar təşkil edilmiş, respublika miqyaslı elmi tədbirlər keçirilmişdir.

Aida İmanquliyeva uzun müddət Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakultəsində ərəb ədəbiyyatı fənnindən mühazirələr oxumuş, dissertasiya və diplom işlərinə rəhbərlik etmişdir.

Aida İmanquliyevanın həmkarları, məktəbinin davamçıları və tələbələri onun xatirəsini həmişə əziz tuturlar.

***İmamverdi HAMİDOV,***
***professor***

# Misirdə görkəmli şərqşünas-alim Aida İmanquliyevaya həsr olunmuş kitab çapdan çıxıb

Misirdə şərqşünaslıq elminin Azərbaycanda və dünyada aparıcı xadimi, görkəmli şərqşünas-alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva haqqında “Məhcər ədəbiyyatında şərqşünasların əsərləri sırasında Aida İmanquliyeva nümunəsi” adlı kitab çapdan çıxıb.




AZƏRTAC xəbər verir ki, Azərbaycanın Misirdəki səfirliyinin dəstəyi ilə ərsəyə gələn əsərin müəllifi misirli alim, professor Raşa Ğanimdir. “Ərəb Mütəfəkkirləri Evi” nəşriyyatında ərəb dilində nəfis şəkildə çap olunmuş kitab müqəddimə və üç fəsildən ibarətdir.

Görkəmli şərqşünas-alimin “Yeni ərəb ədəbiyyatı korifeyləri” fundamental monoqrafiyasının təhlilini aparan müəllif qeyd edib ki, Aida İmanquliyeva ən yüksək peşəkarlıqla ərəb ədəbiyyatında modernləşmə cərəyanını araşdırıb, məhcər ədəbiyyatı nümunələrini dərinliyi ilə tədqiq edib, ərəb ədiblərinin yaradıcılığında liberal meyilləri və ənənəvi yaradıcılıq üslubuna xas olan əsərlərin xüsusiyyətlərini araşdırıb.

Kitabda qeyd olunub ki, 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva həmçinin Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən “Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları” ixtisası üzrə müdafiə şurasının sədri olub. O, Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib. Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan görkəmli alim uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub. Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Aida İmanquliyevaya həsr olunmuş kitabın işıq üzü görməsi Misir mətbuatının da diqqət mərkəzində olub. “Cümhuriyyə”, “Əl Vəsilə” “Dar Əl Marif” qəzetləri, “Əl Diplomasi”, “Yeni dünya xəbərləri” informasiya portalları, “Diplomasy magazine” jurnalı, “Asiaelyom” agentliyinin saytında və digər KİV-də bu barədə materiallar yayımlanıb.

# Azərbaycanda gender bərabərliyinin təmin olunması prioritet məsələlərdəndir

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsinin15 ili tamam olur. Qanunun mühüm cəhəti onun qadınların insan hüquqlarından və fundamental azadlıqlardan istifadə etmələrinə mane olan, onlara qarşı kök salmış müəyyən ayrı-seçkiliyin təzahürlərinin tanıdılıb ortaya qoyulmasıdır. Elə qanunun 3-cü maddəsində də müvafiq olaraq de-facto bərabərliyi sürətləndirmək və qadınlar üçün əsaslı bərabərliyi təmin etmək məqsədilə zəruri olan xüsusi tədbirlərin görülməsi nəzərdə tutulur.

Ötən müddət ərzində gender bərabərliyinin təmin olunması istiqamətində çox mühüm işlər görülmüş, əhəmiyyətli uğurlar əldə edilmişdir. Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi siyasət, yaradılan institutsional mexanizmlər, qanunvericilik bazası əksər inkişaf etmiş dövlətləri qabaqlayır. Ümumiyyətlə, tarixdə bərabərliyin təmin olunmasında və qadınların hüquqlarının müdafiə mexanizminin yaradılmasında Azərbaycan bir çox aparıcı dövlətlərlə yanaşı dayanır. Bu, bir tərəfdən qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələrlə bağlıdırsa, digər tərəfdən həyata keçirilən dövlət qadın siyasətindən irəli gəlir.

1995-ci ildə keçirilmiş IV Ümumdünya Qadın Konfransı Azərbaycanda qadın hərəkatının dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. O vaxt ölkəmizdə qadın problemləri ilə məşğul olan dövlət qurumu yox idi. Elə buna görə də Ümummilli Lider Heydər Əliyev “4-cü Ümumdünya Qadın Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında” 15 sentyabr 1994-cü il tarixdə fərman imzalamışdı. Ulu Öndər yaxşı bilirdi ki, XX əsrin sonlarında Ermənistanın hərbi təcavüzü ilə üzləşən, ərazisinin 20 faizi işğal altında olan, müharibənin ağrıacılarını yaşayan, bir milyon qaçqın və məcburi köçkünü olan Azərbaycan qadınlarının bu konfransda iştirakı olduqca böyük əhəmiyyət kəsb edir. Ümummilli Lider xalqa müraciət edərək demişdir: *“Milyondan artıq qaçqını və məcburi köçkünü olan Azərbaycan üçün bu gün ən ümdə vəzifə Ermənistan Respublikasının hərbi təcavüz nəticəsində doğma evindən-ocağından məhrum olan qaçqın qadın və uşaqların problemlərini həll etməkdən ibarətdir”.* Məhz Azərbaycan qadınları bu yüksək tribunadan ermənilər tərəfindən Qarabağın işğal edildiyini, 1 milyondan çox qaçqın və məcburi köçkünün 453 mindən çoxunu qadınların və 309 mindən çoxunu uşaqların təşkil etdiyini, əsir, girov və itkin düşən qadın və uşaqların taleyi, əsirlikdə zorakılığa və işgəncələrə məruz qalanların məsələsini səsləndirdilər, strateji istiqamət kimi bu məsələlərin əks olunmasını bəyannaməyə təklif etdilər.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində qadınlarla kişilər arasında bərabərlik prinsipi təsbit edilib və ayrı-seçkiliyin yolverilməzliyi bəyan edilib. Bərabərlik hüququnu pozma Cinayət Məcəllləsində cinayət əməli kimi müəyyən edilib. Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan qadınlarının rolunun artırılmasına dair 1998-ci il sərəncamı və ölkədə dövlət qadın siyasətinin həyata keçirilməsinə dair 2000-ci il fərmanı gender bərabərliyinə nail olmaq üçün vacib normativ hüquqi baza oldu.

2006-cı ildə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” qanunun qəbul olunması gender bərabərliyinin təmin edilməsi istiqamətində həm də institusional mexanizmlərin formalaşdırılmasına mühüm töhfə verdi. 2006-cı ildə Azərbaycan Prezidentinin fərmanı ilə ləğv edilmiş Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında daha çox səlahiyyətlərə malik olan yeni dövlət strukturu - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təsis edildi. Komitə ölkədə gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən dövlət qurumudur. Bütün dövlət qurumlarında və digər təsisatlarda gender məsələləri üzrə məsul şəxslər fəaliyyət göstərirlər. Hazırda bütün yerli icra hakimiyyətlərində müvafiq yerli icra orqanlarının nümayəndələrindən ibarət gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qrupları baş vermiş zorakılıq hallarını araşdırır, qurbanın müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi üzrə funksiyaları həyata keçirir. Ölkədə 10 Qadın Resurs Mərkəzi, 200-dən çox QHT fəaliyyət göstərir. Siyasi partiyalarda qadınların aktiv iştirakını müşahidə edirik. Bu sahədə əsas nailiyyətlərdən biri də Azərbaycan Respublikasının Milli Məclisində Ailə, qadın və uşaq məsələləri üzrə komitənin yaradılması olmuşdur.

Ötən müddət ərzində gender siyasətinin həyata keçirilməsini özündə ehtiva edən bir çox hüquqi-normativ akt, sənəd, fəaliyyət planı, dövlət proqramı qəbul edildi. Qəbul olunan və yeni hazırlanan qanun və normativ-hüquqi aktlar gender ekspertizasından keçirilir. Bu, çox vacibdir, çünki gender bərabərliyinin təmin edilməsi istiqamətində bir çox boşluq müəyyən olunur. BMT-nin “2000-2015-ci illəri əhatə edən Minilliyin İnkişaf Məqsədləri”ndə həmin sənədin 3-cü məqsədində “Cinslərarası bərabərliyin təmin olunması və qadın hüquqlarının genişləndirilməsi” nəzərdə tutulmuşdur. Bəyannaməyə qoşulmuş ölkəmizdə kompleks tədbirlərin keçirilməsi məqsədi ilə “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı”, eləcə də “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” hazırlanaraq təsdiq edilmiş və icra olunmuşdur. Birinci proqramda məşğulluq, təhsil, zorakılıq, qaçqın və məcburi köçkünlər, yeniyetmə qızlar, qərar qəbuletmə prosesi istiqamətləri üzrə fəaliyyətlər nəzərdə tutulmuşdur. İkinci proqramda isə gender bərabərliyinin dəstəklənməsi strateji məqsədlərdən biri kimi müəyyən edilmişdi.

Gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətlərinin genişləndirilməsi ölkə siyasətinin mühüm prioritetlərini təşkil edir. Bu, bütün sahə və istiqamətləri əhatə edir. Qadınların iştirakçılığının artırılması üçün imkanların genişləndirilməsi, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi məqsədilə mühüm işlər görülmüşdür.

Qadın hüquqlarının müdafiəsi, məişətdə xüsusilə qadınlara qarşı zorakılığın qarşısının alınması baxımından 22 iyun 2010-cu ildə qəbul edilmiş “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun mühüm əhəmiyyəti var. Nikah yaşının qadın və kişilər üçün bərabərləşdirilməsi və nikahdan əvvəl tibbi müayinənin icbari olması ilə bağlı ailənin qadının nikaha daxil olmağa məcburetmə ilə əlaqədar məsuliyyətinin müəyyən edilməsi ilə bağlı Cinayət Məcəlləsinə dəyişikliklər olunmuşdur. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən hazırda Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının layihəsi hazırlanır. “Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün tədbirlər” və “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Plan”larının qəbul olunması və bununla əlaqədar müvafiq qurumların qarşısında vəzifə və öhdəliklərin qoyulması da ölkədə gender bərabərliyinin təmin olunmasına xüsusi töhfə verəcəkdir. Hazırda müstəqil Azərbaycan qadınları parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, ölkə iqtisadiyyatının inkişafında sahibkar kimi biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, milli təhlükəsizlik və hüquq mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər rəhbər vəzifələrdə təmsil olunurlar. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti qadındır. Son illər nazir müavini olan qadınların sayı 3-dən 7-yə (Naxçıvan Muxtar Respublikası daxil olmaqla) yüksəlmişdir, 2 qadın icra hakimiyyəti başçısı və 72 qadın icra hakimiyyəti başçısının müavinidir. Hakim qadınların sayı 84 nəfər, yəni 16 faizdir. Prokuror qadınların sayı 9-dur. 2 qadın səfir və 1 qadın konsuldur. 2021-ci ilin əvvəlində dövlət qulluğu vəzifələrini tutmuş işçilərin 27,5 faizini qadınlar, 72,5 faizini kişilər təşkil etmişdir. Qadınların 36,1 faizi, kişilərin isə 63,9 faizi ali - 3-cü təsnifatlar üzrə inzibati vəzifələri, qadınların 23,2 faizi, kişilərin isə 76,8 faizi 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələri, qadınların 40,1 faizi, kişilərin isə 59,9 faizi dövlət qulluğunun yardımçı vəzifələrini tutur. Əvvəlki illərlə müqayisədə dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyində irəliləyişlər əldə olunmuşdur. 2000-ci ildə qadın millət vəkilləri 10,7 faiz təşkil edirdisə, 2020-ci ildə onların xüsusi çəkisi 18,3 faiz olmuşdur. Milli Məclisin sədri qadın seçilmişdir. 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü olan qadınlar 4 faiz idisə, 2019-cu ildə bu göstərici 39 faizə çatmışdır.

Ölkə üzrə iqtisadi fəal və məşğul əhalinin tərkibində kişilərin sayı qadınların sayına nisbətən bir qədər çox olmuşdur. Belə ki, məşğul əhalinin 48,2 faizini və işsiz əhalinin 57,5 faizini qadınlar təşkil etmişdir. İqtisadi fəal əhalinin 48,9 faizi isə qadındır. Qadınların sayı kişilərdən üç fəaliyyət növündə - səhiyyə və sosial xidmətlərin göstərilməsində 55,2 faiz, təhsildə 46,6 faiz və istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətdə 24,0 faiz çox olmuşdur. Dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da iqtisadi iştirak və imkanlar baxımından gender fərqinin aradan qaldırılması istiqamətində tərəqqini ləngidən bir sıra struktur problemlərinin olduğu müşahidə edilir. Azərbaycanın əmək bazarında üfüqi və şaquli seqreqasiya davam etməkdədir. Qadınlar daha çox az ödənişli və qeyri-rəsmi işlərdə çalışır ki, bu da kişi və qadın əməkhaqlarında mühüm fərqin mövcudluğuna səbəb olur. Lakin bununla belə 2005-ci ildə 432 qadın maliyyə və sığorta fəaliyyəti ilə məşğul olurdusa, 2020-ci ildə bu say 10226 nəfərə çatmışdır. Və ya 2005-ci ildə peşə, elmi və texniki fəaliyyətlə 14 811 qadın məşğul olurdusa, 2020-ci ildə onların sayı 25 503 olmuşdur.

Ölkə üzrə işsizliyin səviyyəsi 7,2 faizdir. Ancaq cinslər üzrə bölgüdə qadınlar arasında işsizliyin nisbəti daha çoxdur. Qadınlar arasında işsizliyin səviyyəsi 8,4 faiz, kişilərin arasında isə 6 faiz təşkil edir. Qeyd etmək lazımdır ki, əvvəlki illərin dinamikasına baxsaq, son 16 ildə yoxsulluğun səviyyəsi azalaraq 4,8 faizə enmişdir. Lakin pandemiyanın gətirdiyi fəsadlardan biri də işsizliyin artması olmuşdur. Lakin həm yerli, həm də beynəlxalq hesabatlar növbəti illərdə vəziyyətin müsbətə doğru dəyişəcəyini bildirir. Əlbəttə ki, Azərbaycanda iqtisadi imkanların artması sahəsində atılan addımlar, ilk növbədə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən bərpası və qurulması, bölgədə açılacaq kommunikasiya və logistika layihələri, eləcə də kiçik və orta biznesin inkişafı, yeni müəssisələrin yaradılması işsizlik səviyyəsini getdikcə azaldacaqdır.

Azərbaycanda sahibkarların 22 faizini qadınlar, 78 faizini kişilər təşkil edir. Azərbaycan Qadın Sahibkarlar Assosiasiyası fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyinin tabeliyində olan Sahibkarlığın İnkişafı Fondu tərəfindən son 17 ildə 4421-dən çox qadın sahibkara 84,3 milyon manat kredit verilmiş, o cümlədən qadın sahibkarlara verilmiş güzəştli kreditlər hesabına 7094 yeni iş yeri açılmışdır. Yeri gəlmişkən pandemiya zamanı ölkə əhalisinin maska tələbatı yerli istehsal hesabına ödənilir ki, burada da qadın sahibkarlar fəal çalışırlar. Azərbaycan Kənd Qadınları Assosiasiyası qadınların regional və ölkə səviyyəsində şəbəkələşməsi prosesinə öz mühüm töhfəsini verir. Azərbaycan Kənd Qadınları Assosiasiyası tərəfindən 14 rayonda 38 Qadın İnkişaf və Müəssisə Qrupunun milli şəbəkəsi yaradılmışdır. 38 qrupda ümumilikdə 462 qadın fəaliyyət göstərir. 32 qrup artıq öz bizneslərini qurmuş, təsərrüfat, təsərrüfatdan kənar və qeyri-təsərrüfat sahələrinə aid olmaqla cəmi 100 kiçik biznesi idarə edir. Azərbaycan uzun illərdir ki, BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının (SPECA) Gender və İqtisadiyyat üzrə Tematik İşçi Qrupuna (hazırda Gender və Dayanıqlı İnkişaf adlanır) sədrlik edir və bu çərçivədə bir neçə forum və beynəlxalq konfrans keçirilmiş, təcrübə mübadilələri aparılmışdır.

Ölkə rəhbəri tərəfindən müxtəlif illərdə “Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”, 2019-2030-cu illər üzrə Məşğulluq Strategiyası və onun həyata keçirilməsi üzrə Tədbirlər Planı, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilmişdir ki, bu sənədlərdə qadın məşğulluğunun artırılması, onlar arasında sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, kənd yerlərində qadınların peşə hazırlığının gücləndirilməsi, startapların genişləndirilməsi, uşaq bağçalarının sayının artırılması üzrə tədbirlər nəzərdə tutulmuşdur. Qadınların aktiv sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul ola bilməmək səbəblərindən biri məktəbəqədər təhsil müəssisələrinin çatışmazlığıdır. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə proqram həyata keçirilir. Hazırda 1-5 yaşlı uşaqların cəmi 28,5 faizi uşaq bağçası ilə əhatə olunub. Doğrudur, bu göstərici əvvəlki illərlə müqayisədə artmışdır və həmin sahədə işlər davam edir. Bu, bir çox ölkənin, o cümlədən də inkişaf etmiş ölkələrin qarşısında dayanan problemdir.

Azərbaycanda hər 100 təhsil alana 47 qadın və 53 kişi düşür. Bütövlükdə savadlılıq 100 faizə çatdırılıb. 15 və yuxarı yaşlı qadınlar arasında savadlılıq 99,8 faiz, kişilər arasında isə 99,9 faizdir. Ümumi təhsil müəssisələrində 80,1 faizi, orta ixtisas təhsil müəssisələrində 78,9 faizi, ali təhsil müəssisələrində 52,0 faizi qadınlar təşkil edir. Şagird və tələbələr arasında ümumi təhsil müəssisələrində şagirdlərin 45,9 faizi, orta ixtisas təhsil müəssisələrində tələbələrin 66,3 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,0 faizi qızlardır. Doktorantların 30,8 faizini, bütün elmi işçilərin isə 53,6 faizini qadınlar təşkil edir. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsilalanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır. BMT-nin İnkişaf Proqramı ilə bərabər başladığımız “Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda” adlı mentorluq proqramını qeyd edə bilərik ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması və onlara təhsil və karyera sahəsində çağırışların öhdəsindən gəlmək üçün məsləhətlərin verilməsidir.

Genderə həssas büdcənin tətbiqi ilə bağlı Azərbaycanda bir sıra yeniliklər var. Belə ki, 2020-ci ildə “Dövlət Maliyyə İdarəetmə Sistemində Gender Amillərinin nəzərə alınmasına dair İcmal” hazırlanmışdır. Eyni zamanda ortamüddətli dövr ərzində dövlət maliyyə resurslarının planlaşdırılması və bölüşdürülməsi prosesi vasitəsilə gender bərabərliyi ilə bağlı hədəflərə nail olunmasına daha çox töhfə vermək məqsədilə genderə həssas büdcənin tətbiqi və gender ölçülərinin büdcə prosesinin bütün mərhələlərinə (büdcə təlimatlarının büdcə təşkilatlarına göndərilməsi, büdcə layihəsinin tərtibi, büdcənin icrası və hesabatların hazırlanması) inteqrasiya edilməsi nəzərdə tutulur.

Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunan 17 məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. “Heç kimin kənarda qalmaması prinsipi və universal xarakter daşıyan bu yeni məqsədlər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci məqsədi gender bərabərliyinə nail olmaq, həmçinin bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur. BMT-nin 'MAPS' - Gündəliyin daxil edilməsi, Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fəaliyyəti sürətləndirmə və siyasətə dəstək” - qrupu tərəfindən Azərbaycanın gender bərabərliyinin təmin edilməsi sahəsində apardığı siyasətin dayanıqlı inkişaf məqsədləri ilə 97 faiz uzlaşdığı müəyyən edilmişdir. Ümumən dünyada gender bərabərliyinin tam təmin edilməsi prosesini ləngidən bir sıra amillər Azərbaycanda da mövcuddur. Erkən yaşda evlilik, məişət zorakılığı, mənfi gender stereotipləri, selektiv abortlar hələ də problem olaraq qalmaqdadır. Bu da o deməkdir ki, hələ bizim qarşımızda bir sıra vəzifə və öhdəlik var.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanla Tacikistan arasında iqtisadi-ticari əlaqələrin dərinləşdirilməsi məsələləri müzakirə olunub

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov bu ölkənin iqtisadi inkişaf və ticarət naziri, Azərbaycan-Tacikistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyanın həmsədri Zavki Zavkizoda ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Z.Zavkizoda Tacikistan Respublikasına səfir təyin olunması münasibətilə Ə.Əskərovu təbrik edib, ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Səfir iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin inkişaf etdiyini qeyd edərək, Azərbaycanda aparılan iqtisadi islahatlar və qeyri-neft sektorunun inkişafı barədə məlumat verib, Tacikistan şirkətlərini Azərbaycana investisiya qoymağa dəvət edib.

Ə.Əskərov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun Vətən müharibəsindəki qələbəsi barədə danışıb, işğaldan azad olunan ərazilərin bərpası və inkişafı ilə bağlı konsepsiyanın hazırlandığını, orada dövlət-özəl tərəfdaşlığından geniş istifadə olunmasının, həmçinin xarici investorlar üçün xüsusi təşviq proqramlarının, ərazilərin inkişafı məqsədilə xarici şirkətlərin cəlb edilməsinin nəzərdə tutulduğunu bildirib.

Z.Zavkizoda Tacikistan və Azərbaycanın biznes dairələrinin əməkdaşlıq münasibətlərinin inkişafında maraqlı olduğunu qeyd edib, iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində səy göstərəcəyini bildirib.

Görüşdə həmçinin Azərbaycan ilə Tacikistan arasında mövcud iqtisadi əlaqələr və bu əməkdaşlığın genişləndirilməsi perspektivləri, o cümlədən turizm sahəsinin inkişafı məsələləri müzakirə olunub.

## Azərbaycan neftinin qiyməti 84 dolları ötüb

Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,97 dollar artaraq 84,78 dollar təşkil edib.



Qeyd edək ki, Azərbaycan neftinin bir barelinin minimum qiyməti 2020-ci il aprelin 21-də (15,81), son iki il ərzində maksimum qiyməti isə bu il oktyabrın 5-də (85,15) qeydə alınıb.

## İşğaldan azad edilmiş ərazilərdə iqtisadi və sosial layihələr birgə həyata keçirilir



### Böyük qayıdışdan sonra əhalinin iş yeri və sosial infrastruktur sarıdan problemi olmayacaq

*Əvvəli 1-ci səh.*

Məlumdur ki, hər bir ərazidə iqtisadi inkişafa nail olmaq üçün onun mükəmməl sosial infrastrukturu olmalıdır. İşğaldan azad olunan əraziləri bərpa etmək üçün, ilk növbədə, sosial infrastruktur layihələrinin icrası da bununla bağlıdır. Enerji ilə təminat isə digər sosial infrastruktur layihələrindən daha önəmlidir. Bu üzdən bölgədə, ilk növbədə, su elektrik stansiyalarının, yarımstansiyaların və enerjiötürücü xətlərin çəkilməsi icra olunur. Artıq regionda ermənilər tərəfindən dağıdılmış bir çox su elektrik stansiyası təmir edilərək istifadəyə verilmişdir.

Dövlət başçısının son səfəri zamanı Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" su elektrik stansiyalarının da yenidənqurmadan sonra açılışı olmuşdur. Prezidentə məlumat verilmişdir ki, ermənilər ərazini tərk edərkən hər iki stansiyanın yararlı ehtiyat hissələrini söküb daşımış, apara bilmədiklərini isə dağıtmışlar. Qısa zamanda düşmən tərəfindən dağıdılan idarəetmə məntəqəsinin binaları və avadanlıqları, o cümlədən stansiyanın elektrikverici xətti tamamilə yenidən qurulub. Təkcə "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kilovatsaat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub. Hər iki layihənin istismara verilməsi bölgənin enerji təminatında önəmli rol oynayacaq.

Azərbaycanda aparılan siyasətin fövqündə ölkə vətəndaşının mənafeyi dayanır. Müharibə başa çatdıqdan dərhal sonra cəbhə bölgəsində ermənilərin dağıtdıqları bütün binaların təmir edilməsi və ya yenidən tikilməsi, o cümlədən dövlət başçısının Tərtər rayonuna səfəri zamanı "Smerç" raketi ilə evi dağıdılan Sahib İsmayılovun ailəsi üçün tikilən təzə evə baş çəkməsi də bunu təsdiqləyir.

Ümumiyyətlə, Vətən müharibəsi zamanı düşmənin ən çox hədəfə aldığı rayon Tərtər olmuşdur. Savaş günlərində rayonun 12 mülki şəxsi qətlə yetirilmiş, 63 nəfər yaralanmışdır. Tərtər şəhəri də daxil olmaqla rayonun 40 yaşayış məntəqəsinə 16 min 272 tank, top, qrad, minamyot mərmisi, həmçinin qadağan olunmuş 21 raket atılmışdır. Bu xain hücum nəticəsində rayonda 82 mənzilə, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, texniki peşə məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. İndi sürətlə həmin obyekt, ev və mənzillər təmir edilir, bu, mümkün olmadıqda isə yeniləri tikilir. Həmçinin Sahib İsmayılov kimi yeni ocaqlarına köçənlər də çoxdur.

Hazırda dünya iqtisadiyyatında keyfiyyətli, maya dəyəri aşağı olan məhsul istehsalına nail olmaq üçün yüksək texnologiyalardan geniş istifadə edilir. Bu da yeni növ avadanlıqlardan istifadə etməyi bacaran kadrlara olan tələbatı artırır. Həmin səbəbdən yeni dövrün tələblərinə cavab verən ixtisaslı kadrlar hazırlamaq üçün ölkəmizdə müasir ixtisasların tədrisinə diqqət yetirilir, iri şəhərlərlə yanaşı, bölgələrdə də müasir ixtisaslar üzrə kadrların hazırlanması üçün peşə liseylərinin şəbəkəsi genişləndirilir. Dövlət başçısının Bərdəyə səfər edərkən açılışında iştirak etdiyi yeni peşə liseyi də onlardan biridir. Beş blokdan ibarət olan yeni lisey rayon və bölgə üçün müasir tələblərə cavab verən kadrların hazırlanmasında önəmli rol oynayacaq.

Prezident səfər çərçivəsində digər sosial obyektlərin, o cümlədən Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimlərində iştirak etmişdir. Bu faktlar onu göstərir ki, işğaldan azad olunan ərazilərdə iqtisadi və sosial layihələr paralel həyata keçirilir. Deməli, böyük qayıdışdan sonra əhalinin iş yeri və sosial infrastruktur sarıdan heç bir problemi olmayacaq.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

## Dövlət Məşğulluq Agentliyi 9 ayda 62 673 şəxsi işlə təmin edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin 9 ayında 62 673 işsiz və işaxtaran şəxs münasib işlərlə təmin edilib. Onlardan 23 289-u ödənişli ictimai işlərə cəlb olunub.

Həmçinin agentlik tərəfindən mühüm istiqamətlərdən biri olan özünüməşğulluq proqramının icrası işləri də davam etdirilib. Artıq 11 950 nəfərin proqrama qeydiyyatı aparılıb. Onlardan 6 883 nəfəri seçdikləri biznes istiqamətləri üzrə aktivlərlə təmin edilərək kiçik təsərrüfatlarını yaradıblar.

Qeyd olunan dövr ərzində agentlik tərəfindən 262 işsiz şəxs müxtəlif istiqamətlər üzrə peşə hazırlığı kurslarına, 147 nəfər isə peşəyönümü məsləhəti xidmətinə cəlb olunub.

## Tovuzda tütünçülüyə maraq artır

Artıq 6-cı ildir Tovuzda tütün əkilir. Əvvəlki illərdən fərqli olaraq cari ildən bu işlə "Tovuz Aqro Sənaye" MMC məşğul olur.



Şirkət bu il rayonda 105 hektarda tütün əkib. MMC qabaqcıl texnologiyalarla yetişdirilən tütünün yığımını vaxtında və optimal müddətdə başa çatdırmaq üçün bütün imkanlardan maksimim istifadə edir.

"Tovuz Aqro Sənaye" tütünçülük sahəsində əvvəllər mövcud olan problemləri də aradan qaldırmışdır. Belə ki, istehsal edilmiş yaş tütünün qurudulması üçün müasir tütünqurutma məntəqəsi istifadəyə vermişdir. Sahələrdən yığılan yaş tütün indi heç bir problem olmadan birbaşa həmin məntəqəyə təhvil verilir. Məntəqədə 20 tütünqurutma sahəsi fəaliyyət göstərir. Burada qurudulmuş tütünün saxlanması üçün anbar, çeşidləmə sahələri və digər avadanlıqlar var. Məntəqədə bu işlərin görülməsinə 60 nəfər cəlb edilmişdir.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**

## Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun tikintisi işlərinə başlanılıb



*Prezident İlham Əliyevin oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ərazidə genişmiqyaslı tikinti işlərinə start verilib.*

Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlət başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biridir.

4 yaşayış məntəqəsini birləşdirən yolun ümumi uzunluğu 22 kilometr olacaq. Qarabağın inkişaf planı nəzərə alınmaqla avtomobil yolunun 19 kilometrlik hissəsi II, 3 kilometrlik hissəsi isə IV texniki dərəcəyə uyğun inşa edilir. Müvafiq olaraq yolun layihə üzrə hərəkət hissəsinin eni 19 kilometrlik hissədə 9, 3 kilometrlik hissədə isə 6, torpaq yatağının eni 13 və 10, çiyin hissələrin eni isə 2x2 metr təşkil edəcək.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Artıq yolun ilk 1,8 kilometrlik hissəsində asfaltlanma işləri icra olunub. Yolun Talış-Tapqaraqoyunlu hissəsində isə layihəyə uyğun olaraq torpaq yatağı tikintisi icra edilir. Bunun üçün yararsız qrunt müxtəlif dərinliklərdə qazılaraq çıxarılır, əks-dolğu işləri aparılmaqla kipləşdirilir. Yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün yararlı qrunt tökülərək yayılır, yol yatağı genişləndirilir.

Daha sonra torpaq yatağı hazır olan hissələrdə yol əsasının inşasına start veriləcək, ardınca yeni asfalt-beton örtüyü döşənəcək.

Ardınca avtomobil yolunun altından suların ötürülməsini təmin etmək məqsədi ilə mövcud borular yeniləri ilə əvəz olunacaq, zəruri yerlərdə yeniləri inşa ediləcək. Bundan başqa, layihə çərçivəsində yolun Tapqaraqoyunlu hissəsində İncəçay üzərində yeni avtomobil körpüsü salınacaq.

"İnşaat Norma və Qaydaları"nın tələbləri çərçivəsində görülən işlərə paralel olaraq, tikinti ərazisinə cəlb edilmiş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədi ilə yolun minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işləri də aparılır.

Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər, bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək. Eləcə də yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq.

## Heydər Əliyev Fondu daha bir məktəb binası inşa etdi

Quba rayonunun Zərdabi qəsəbəsində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan yeni məktəb binası istifadəyə verilib.



AZƏRTAC xəbər verir ki, Zərdabi qəsəbə Bayram Şixəmirov adına tam orta məktəbi üçün tikilən üçmərtəbəli bina 850 şagird yerlikdir.

Quba Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev çıxış edərək Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bilavasitə diqqəti və qayğısı ilə ölkədə yeni elm, təhsil, səhiyyə, mədəniyyət mərkəzlərinin istifadəyə verilməsinin artıq ənənəyə çevrildiyini qeyd edib.

Bildirilib ki, Zərdabi qəsəbə Bayram Şixəmirov adına tam orta məktəbin yerləşdiyi əvvəlki bina 46 il öncə istifadəyə verilib. Bina istismar müddətini başa vurduğundan yenisi ilə əvəz olunmasına ehtiyac yaranmışdı. Fondun təşəbbüsü ilə inşa olunan təhsil müəssisəsi üçmərtəbəlidir. Burada sinif otaqları, laboratoriya, linqafon, informatika otaqları, gənclərin çağırışaqədərki hazırlığı kabineti, kitabxana, oxu zalı, bufet, akt zalı, idman zalı və texniki otaqlar müəllim və şagirdlərin ixtiyarına verilib.

Məktəbin həyətində futbol, basketbol və voleybol meydançası inşa olunub, abadlıq işləri aparılıb.

Açılış mərasimində Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Milli Məclisin deputatı Vahid Əhmədov, Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov və Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Aslanov çıxış edərək, qəsəbə sakinlərini yeni təhsil müəssisəsinin istifadəyə verilməsi münasibətilə təbrik ediblər.

Çıxışlarda bildirilib ki, Zərdabi qəsəbəsində ən müasir tələblərə cavab verən məktəb binasının inşası Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin təhsil sahəsinə diqqət və qayğısının bariz nümunəsidir.

Çıxışlarda Vətən müharibəsində qazanılan şanlı Zəfər tarixindən, qəhrəman döyüşçülərimizin şücaətindən danışılıb.

Qəsəbə ağsaqqalı Vahid Əliyev, məktəbin müəllimi Esmira Qurbanova, şagirdlər və sakinlər bütün zəruri avadanlıqla təmin edilən yeni məktəbin istifadəyə verilməsinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Fermerlər maarifləndirilir



Dövlət Toxum Fondu və Əkinçilik Elmi-Tədqiqat İnstitutunun birgə tərəfdaşlığı ilə respublikanın müxtəlif bölgələrində payızlıq əkinlərdə fermerlərin maarifləndirilməsi ilə bağlı təlim-seminarlar davam edir.

Növbəti təlim-seminar Tovuz Toxum Emalı Zavodunda keçirilib. Seminarda Dövlət Toxum Fondunun mütəxəssisləri, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun alimləri, bölgə fermerləri, toxumçular, təsərrüfat rəhbərləri iştirak ediblər.

Seminarda iştirakçılara payızlıq taxıl səpinində aqrotexniki tədbirlərin vaxtında və düzgün aparılması barədə ətraflı məlumatlar verilib. Təlimdə iştirak edən fermerlərə bölgədə kənd təsərrüfatı bitkilərindən yüksək məhsul alınmasını təmin edən becərmə texnologiyalarının tətbiq edilməsi və səpinin yüksək keyfiyyətlə aparılmasına nail olmaq üçün ən son elmi nailiyyətlər barədə təqdimatlar olub. Eyni zamanda bölgənin torpaq-iqlim şəraitinə uyğun, yüksək məhsuldar və keyfiyyətli buğda və arpa sortlarının bioloji xüsusiyyətləri, səpin müddəti, səpin normaları, gübrə normaları və s. haqqında fermerlərə ətraflı məlumatlar verilib.

Təlimdə fermerləri maraqlandıran suallar ətraflı cavablandırılıb və geniş müzakirələr aparılıb, maarifləndirici kitabçalar paylanılıb.

Sonda Tovuz Toxum Emalı Zavodunun fəaliyyəti ilə tanışlıq olub.

## Payızlıq əkinlərin mövcud vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı bölgələrdə müşavirələr keçirilib

Bölgələrdə payızlıq əkinlərə hazırlıq, mövcud vəziyyət və qarşıda duran vəzifələrlə bağlı maarifləndirici görüşlər keçirilir.

Qobustan, Şamaxı, İsmayıllı, Şəki, Zaqatala və Balakən rayonlarında keçirilən müşavirələrdə Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rafail Quliyev və nazirliyin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov, nazirliyin aparatı və tabeli qurumlarının nümayəndələri, fermer və özəl toxumçuluq fəaliyyəti ilə məşğul olan şəxslər iştirak edib.

Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rafail Quliyev bildirib ki, ölkə əhalisinin kənd təsərrüfatı məhsulları ilə etibarlı təminatı aqrar sektorda dövlət siyasətinin əsasını təşkil edir. Qeyd edilib ki, fermerlərin keyfiyyət və kəmiyyət göstəriciləri yüksək olan toxumlarla təminatı daim diqqətdə saxlanılır. Bu səbəbdən taxıl istehsalının artırılmasında digər aqrotexniki tədbirlərlə yanaşı, payızlıq dənli bitkilərin səpininin bölgələr üçün müəyyən edilmiş optimal müddətlərdə başa çatdırılması mühüm əhəmiyyət kəsb edir. Fermerlərin diqqətinə çatdırılıb ki, vaxtında və düzgün aparılan aqrotexniki tədbir, torpağın düzgün hazırlanması, sortun düzgün seçilməsi, alaqlara qarşı mübarizə tədbirləri, eyni zamanda üzvi və mineral gübrələrdən düzgün istifadə olunması mühüm şərtlərdəndir. Fermerlərə əkin materialı kimi yalnız sertifikatlı toxumdan istifadə etmək, toxum seçimi zamanı torpaq-iqlim xüsusiyyətlərini nəzərə almaq, istehsal prosesində aqrotexniki qulluq qaydalarına tam şəkildə riayət etmək tövsiyə olunub. Bildirilib ki, mövcud torpaq və su ehtiyatları fonunda taxılçılıqda orta məhsuldarlığın artırılması yerli şəraitə uyğun toxum seçimindən və düzgün aqrotexniki qulluqdan asılıdır.



Taxılçılıqda xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə fermerlərin və toxumçuların sualları cavablandırılıb, onlara müvafiq məsləhətlər verilib, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

**Dünya olduğu kimi**

# Meşələrdən evlərə gələn dəyərli qida

**Çiçəkli bitkilər təxminən 130 milyon il əvvəl, ondan bir neçə milyon il sonra isə bal verən arılar ortaya çıxıb. Həmin zamandan arılar bal istehsal etməyə başlayıb.**



Qədim insanlar bu möcüzəvi qidaya ilk dəfə meşələrdə rast gəliblər. Onlar meşədə qida axtararkən yaşlı ağacların koğuşlarında ətirli maddə ilə dolu olan arı şanıları - bal tapıblar və o zamandan da baldan istifadə etməyə başlayıblar.

Qədim dövrlərdə Yer üzərində meşələr indikinə nisbətən qat-qat çox idi. Bir çox xalqlar, tayfalar arı ilə o dövrlərdə rastlaşıblar və dünyanın bir çox ərazilərində, xüsusilə Avropada bal yığmaq çox yayılmış bir məşğuliyyət olub. Bunu hamı vacib iş sayırdı. Qayalarda yuva salan arıları Afrika qitəsinin xalqları da müşahidə edib və onların balından bəhrələniblər.

Bal haqqında ilk tarixi qeyd eramızdan əvvəl 2100-cü ildə olub. Alimlərin bəziləri balın ilk dəfə Afrikada tapılması barədə danışsalar da, bəziləri onun Asiyanın cənubunda meydana gəldiyini ehtimal edirlər. Ümumilikdə digər ölkələrə nisbətən arıçılıqla məşğul olan ən axırıncı qitə Amerika sayılır. Arılar bu qitəyə 1675-ci ildə köçürülüb.

Arıların əhliləşdirilməsi, mədəni arıçılığın əsasları insanların meşələrdəki arı pətəklərini öz yaşayış məskənlərinə yaxın gətirməsi ilə başlanıb. Arını ilk dəfə əhliləşdirən misirlilər olub. Bu, təqribən 6500 il əvvəl baş verib. Arı misirlilərdə ölməzlik nişanəsi sayılırdı. Baldan onlar həm bilavasitə yemək üçün, həm də şirniyyat hazırlamaq üçün istifadə edirdilər. Misirlilər arını gildən hazırlanmış pətəklərdə bəsləyirdilər. Köçəri arıçılığın əsasını da ilk dəfə məhz misirlilər qoyublar.

Bala çox dəyərli qida məhsulu kimi baxılan Misirdə bu məhsulun saxlanılmasını, istifadəsini təsdiq edən şəkillər də o dövrdən qorunaraq bugünümüzə gəlib çatıb. Misirlilər gündəlik mübadilələrində baldan pul kimi də istifadə edirdilər. Qədim yəhudi mədəniyyətinin yazılı abidələrində onun adı dəfələrlə çəkilir. Əsrlərdən bəri almanlar, litvalılar, slavyanlar balın əldə edilməsi ilə məşğul olublar.

Yunanlar və romalılar balı tanrılara layiq bir qida hesab edirdilər.

Arını qədim Almaniyada müqəddəs sayır, ona nizam, səliqə, qənaət, cəsarət, ağıl və istedad rəmzi kimi səcdə edirdilər. Qədim almanlar yeni arı ailələrinin palıd, cökə ağaclarının koğuşlarında təzə yuva qurmasına kömək edib, lazım gəldikdə onu yeni oyuqlara köçürüblər. Almanlar sonrakı müşahidələri zamanı bu qənaətə gəlmişlər ki, süni pətəklər heç də təbii pətəklərdən geri qalmır, onlardan daha çox bal götürmək mümkündür. Onlar arıların daha məhsuldar olması üçün pətəklərin ətrafında müxtəlif ətirli bitkilər əkib.

Assuriyada da yaxşı arıçı sənətkarlar yetişmişdi. Onlar xüsusi səslər çıxarmaqla arıları pətəyə salır, pətəkdən çıxarır, bir sözlə, arı dəstəsini idarə edirdilər. Təsadüfü deyil ki, Assuriya bal və zeytun ixrac edən ölkə kimi tanınıb.

Azərbaycanda arıçılıq qədim tarixə malikdir. Hələ eramızdan əvvəl IX-VIII əsrlərdə Urartu dövlətində insanlar arıçılıqla məşğul olublar. X-XII əsrlərdə Azərbaycanda arıçılıq inkişaf edib. Hasil edilən arıçılıq məhsulları (bal və mum) başqa ölkələrə ixrac edilib. Xalqımızın dahi şairləri Nizami və Xaqani Azərbaycan balını ilhamla tərənnüm ediblər. Ölkəmizdə arıçılığın tarixinin qədimliyini sübut edən faktlar var. Respublikamızın ərazisindəki çoxlu toponimin adı arı və onun məhsulları ilə bağlıdır. Belə yerlərə Şahdağ zirvəsindən axıb gələn Arısu çayı, onun sahilindəki Arısu kəndi, Gədəbəy rayonundakı Arıtəpə, Ağdərə rayonundakı Ballıqaya, Xankəndi yaxınlığındakı Ballıca kəndlərini və digərlərini qeyd etmək olar.

## Zəhərli bal

Adətən hər zaman balın insanlara müalicəvi təsir göstərməsi barədə danışırıq. Amma insana kefləndirici təsir göstərən ballar da var. Belə balları zəhərli də hesab edirlər. Bu balı arılar dağlarda xüsusi bitkilərdən toplayırlar.

Daha çox dəfnə çiçəyindən alınan bal qeyri-adi xüsusiyyətə malik olaraq, insana kefləndirici təsir göstərir. Bu cür balı qəbul edən insanlarda bəzən temperatur qalxır, ürək bulanması, təngnəfəslik və baş gicəllənməsi müşahidə olunur. Belə balı bir il saxladıqdan sonra onun zəhərliliyi itir və yemək üçün yararlı olur.

Məlumatlara görə, tarixdə kefləndirici bal döyüşün məğlubiyyətlə başa çatmasına da səbəb olub. Roma ordusunun əsgərləri zəbt etdikləri bölgələrdə dəfnə balından yeyib kefləndikləri üçün vuruşda məğlub olublar.

## Ən çox bal satan ölkələr



Dünyada pətəklərdə saxlanılan bal arılarının təxmin edilən sayı iki trilyondur. Qlobal arı populyasiyasının 80 milyondan 100 milyona qədəri idarə olunan arı pətəklərindədir.

Pestisidlər, quraqlıq, yaşayış yerlərinin məhv edilməsi, qida çatışmazlığı, havanın çirklənməsi, qlobal istiləşmə arıların ölümünün əsas səbəbləri hesab edilir.

Dünya üzrə bal istehsalının həcmi təxminən 400 milyon tondur. Dünya üzrə istehsal olunan balın 120 milyon tonu idxal-ixrac əmtəə dövriyyəsinin tərkibinə daxil olur. Ən çox bal satan ölkələr Meksika, Argentina, Çin, ABŞ, Avstraliya, Ruminiya və Macarıstandır.

## Ən bahalı bal

**Türkiyə dünyanın ən yaxşı bal istehsal edən ölkəsi sayılır. Ginnesin Rekordlar Kitabında Türkiyənin "Centauri Balı"nın dünyanın ən bahalı balı olduğu qeyd edilib.**




Türkiyədə bir yerli şirkətin mağarada topladığı bu balın 1 kiloqramının qiyməti 10 min avrodur. Bal dəniz səviyyəsindən 2500 metr yüksəklikdəki bir mağarada əldə edilir. Bu yer insan məskənlərindən çox uzaqda yerləşir. Həmin balın nektarı adi ballardan fərqlidir. Onun dadı acıdır. Tünd rəngli və fərqli müalicəvi xüsusiyyətləri olan "Centauri Balı" maqnezium, kalium, fenol, flavonoid və antioksidantlar baxımından yüksək müalicəvi xüsusiyyətlərə sahibdir. Bal istehsalında ən yüksək keyfiyyətə nail olmaq üçün arılara ənənəvi üsullarla qulluq edilmir. Digər arılardan fərqli olaraq, "Centauri balı" ildə yalnız bir dəfə toplanır.

## Arı 1 litr baldan ötrü 5 milyondan çox bitkinin şirəsini toplamalıdır



Bal əldə etmək üçün arılar qanadlarını min kilometrlərə çırpırlar. Arıların həyatlarına nəzər salsaq, bir pətək 90 minə qədər arı saxlaya bilər.

Bal arıları digər arıların buraya gəlməməsi üçün qonduqları çiçəkləri xüsusi bir elektrik sahəsi ilə örtürlər. Bu elektrik sahəsinə diqqət yetirən digər arılar reseptorları sayəsində həmin çiçəyi ziyarət etmədən keçir və beləliklə, başqa çiçəklərə doğru gedirlər. Onlar bununla həm də vaxt itkisi yaşamırlar.

Bir arı bir litr bal əldə etməkdən ötrü beş milyondan çox bitkinin şirəsini toplamalıdır.

Bəzi arılar xəstə olduqda yuvalarına qayıtmazlar. İstiqamət hissini itirdikləri üçün özləri ölürlər. Bir xəstəliyə və ya virusa yoluxduqda yuvalarına qayıtmaz və bununla digər arıları da xəstəlikdən qoruyarlar.

Uçan arının enerjisini saxlaya bilməsi üçün hər kilometr üçün yarım milliqram qidaya ehtiyac duyurlar. Bir arı bir litr bal ilə saniyədə 250 dəfə qanad çalır, 3 milyon km yol qət edir və bütün çiçəkləri dolaşır. Bir bal arısı bir anda 50-100 çiçək ziyarət edir.

Dünyanın ən sürətli kompüterləri bir saniyədə 16 milyard hesablama əməliyyatı həyata keçirə bilirsə, bal arısı daha az enerji sərf edərək eyni anda 10 trilyon əməliyyat həyata keçirmə qabiliyyətinə malikdir. Bal arıları bu gün təbiətin ən yüksək işləmə sürəti, ən səmərəli kompüterdən yüz milyon dəfə daha sürətli işləmə qabiliyyəti olan möhtəşəm canlılardırlar.

## Ən çox bal yeyənlər



Dünyada ən çox bal yeyən Mərkəzi Afrika Respublikasının əhalisidir. Onların gündəlik qəbul etdikləri balın miqdarı 9,62 qramdır ki, bu da bütün dünya üzrə ən yüksək göstəricidir.

Ən çox bal istehsal edən ölkələrdən olan Mərkəzi Afrikada insanlar balı öz yeməklərində təbii bir dadlandırıcı olaraq çox istifadə edirlər.

Yeni Zelandiya bal istehlakına görə Mərkəzi Afrikadan bir qədər geri qalmaqla ikinci pillədə dayanıb. Bu ölkədə adambaşına düşən gündəlik bal istehlakının miqdarı 5,55 qramdır. Yeni Zelandiya bal istehsalına görə də dünyada öndə gedən ölkələrdəndir. Bu ölkə dünyanın ən bahalı bal növlərindən biri olan "Manuka" balının əsas istehsalçısıdır. Yeni Zelandiyada arı pətəklərinin sayı 2006 -cı ildən 2016-cı ilədək davamlı olaraq artıb ki, bu həm yerli, həm də beynəlxalq səviyyədə bala olan tələbatın artdığını göstərir.

Sloveniyada adambaşına düşən gündəlik balın miqdarı 4,4 qram, Yunanıstanda isə 4,24 qramdır. Dünyada ən çox bal istehlak edən ölkələr arasında İsveçrə, Ukrayna, Türkiyə, Slovakiya, Monteneqro da var.

Bal porsuğu (Honey Badger) - gecə həyat sürən heyvandır. Bu heyvan kiçik olmasına baxmayaraq, qorxu bilməyən və dalaşqan biridir. Ölçüsünə baxmayaraq bal porsuğu cəsarətlə bəbirə və hətta aslana qarşı vuruşur.

## Dünyanın ən qədim balı



Dünyanın ən qədim balının Gürcüstanda tapıldığı iddia edilir. Məlumatlara görə, təxminən 5500 yaşı olan ən qədim bal Tbilisidən uzaq olmayan bir yerdə - bir zadəgan qadının məzarındakı keramik qablarda aşkar edilib.

İtaliya sahillərində 2000 illik gəmi qəzasını araşdıran dalğıclar da həmin gəmidə balıq qalıqları, taxıl, şərab, yağ və balın olduğu təxminən 200 qab tapıblar.

Bal minillərlə yaşı olan Misir türbələrində də aşkarlanıb.

Qeyd edək ki, hava keçirməyən bir qabda saxlanıldığı zaman bal qeyri-müəyyən saxlama müddətinə malik olur. Balın uzun müddət qala bilməsinin əsas səbəbi onun kimyəvi quruluşu ilə izah edilir. Balın nəmliyi azdır. Bu da düzgün saxlanılan balın xarab olmamasını təmin edir.

## Balı sevən, həm də arıların düşməni olan nadir heyvan



Təbiətdə balı çox sevdiyinə görə adı da balla əlaqəli olan və bal porsuğu adlandırılan nadir heyvan var. Amma bu heyvan həm də vəhşi arıların qənimidir. Bal porsuğu Hindistan bal porsuğu, keçəl porsuq və döyüşçü (ratel) kimi də tanınır.

Balı çox sevdiyinə və dərisinin qalın olmasına görə cəsarətlə vəhşi arıların yuvalarını dağıda bilir. Bu heyvan gündə 80 km yeriyərək qabağına çıxan hər şeyi yeyir. Hətta kobranı belə zəhərlənənə qədər yeyər, zəhərin təsiri ilə özündən getsə belə yenidən ayılıb yeminə qaldığı yerdən davam edər.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*



**Sağlıq olsun**

# Sağlamlıq cövhəri

Hippokrat və Sokratın insan ömrünün uzanması üçün ən ideal qida vasitəsi hesab etdikləri balın 40-dan çox növü var. Ta qədimdən bal həm mühüm qida maddəsi, həm də dərman kimi istifadə olunub.



Ayrı-ayrı bitkilərdən çəkildiyinə görə balın tərkibində insan orqanizmi üçün mühüm olan əksər maddə mövcuddur. Ona görə də bal yeməklə orqanizmdə çatışmayan bir çox maddəni əldə etmək mümkündür. Bal çox asanlıqla həzm edilir və onun əsas xüsusiyyətlərindən biri də infeksiya və mikrob əleyhinə təsir göstərməsidir. Bir sıra dərman vasitələri hazırlanarkən tərkibinə bal qatılır ki, bu vasitə ilə də dərmanın təsiri güclənir, bədəndə yayılması sürətlənir.

Tərkibi yığılma mənbəyindən və emalından asılı olaraq dəyişən balın içərisində quru maddəyə görə fruktoza 40, qlükoza 35, saxaroza 1,3, üzvi turşular 0, 3, fosfor turşusu 0,03 faiz təşkil edir. Vitamin deposu olan bu arı məhsulu B1, B2, B3, B6, PP, C, K və E vitaminləri ilə zəngindir, eyni zamanda içərisində 21 amin turşusu, 50-dən çox ətirli üzvi birləşmə, 30-dan çox makro və mikroelement var. 100 qram bal insana 308 kkal enerji verir.

### Təbiətin ərməğanı

Türkiyəli diyetoloq Fazile Yılmaz balın şəfaverici xüsusiyyətləri ilə bağlı bildirir ki, arıların hazırladığı bu şirin qida təbii antibiotik, güclü antioksidantdır. İmmunitet sistemini gücləndirir və xərçəngdən qoruyur. Bədənə daxil olan mikrobları zərərsizləşdirir. Yaraların daha sürətli sağalmasına və bədənin özünü daha asan bərpa etməsinə imkan verir.

Baldan müntəzəm istifadə etməklə soyuqdəymə, öskürək, astma, bronxit və müxtəlif bu kimi viral və bakterial xəstəliklərin qarşısını almaq olar. Bu qida həzm sistemini tənzimləyir, ülser müalicəsində kömək edir. Bal bədənə sürətlə enerji verərək yorğunluğu, zəifliyi və əzələ yorğunluğunu azaldır. Yaddaşı və zehni qabiliyyətləri gücləndirir, konsentrasiyanı artırır. Hüceyrələrin bərpasını və yenilənməsini təmin edir. Dərini qidalandırır və cavanlaşdırır. Həmçinin saçların qidalanmasına səbəb olur.

Təbii şəfa mənbəyi olan bal pis xolesterolu azaldır, ürək-damar xəstəliklərindən qoruyur və qanı təmizləməyə kömək edir. Qan dövranını tənzimləyən və asanlaşdıran təsiri ilə aterosklerozu önləyir. Anemiyanın qarşısını alır, qan istehsalı üçün bədənin ehtiyac duyduğu enerjini qarşılayır.

Göz sağlamlığını qoruyan bal diş ətini qidalandırır. Maddələr mübadiləsini sürətləndirərək kilo vermə prosesini dəstəkləyir.

Bal şəfaverici gücü sayəsində qaraciyəri, sinə bölgəsini və sidik yollarını təmizləməyə kömək edir. Eyni zamanda ağciyərləri qoruyur və bəlğəmi aradan qaldırır. Həmçinin allergik xəstəliklərin qarşısını alır.

### Diabet xəstələri bal yeyə bilərmi?

"Diabet xəstələri bal yeyə bilərmi?" sualına aydınlıq gətirən diyetoloq bildirir ki, şirin qida olması, insanlarda balın qan şəkərinə pis təsir etməsi bu barədə düşünməyə səbəb olur. Ancaq balın dadı təbii quruluşundan qaynaqlanır. İlk dəfə yeyildikdə qanda şəkər bir qədər yüksəlsə də, qısa müddətdə normallaşır. Yəni arılar tərəfindən təbii şəkildə hazırlanan bal diabetə səbəb olmaz: "Şəkərli diabet xəstələrinə həkimlərin razılığı ilə bal yeməyi, şəkərli diabet xəstəliyi olmayanlara isə hər gün müntəzəm olaraq 1 çay və ya desert qaşığı bal istehlak etməyi məsləhət görürəm".

Lakin bal hər nə qədər bütün dərdlərə dəva olsa da, hər insanda eyni faydalı reaksiyanı göstərməyə bilər. Həddindən artıq istehlak nəticəsində, yüksək kalorisi sayəsində başgicəllənməyə, yüksək hərarətə, qusma və kilo alma kimi hallara yol açar.

Arılar bal istehsalında nektar toplayarkən botulizm adlı bakterial sporlar alaraq bal hazırlaya bilərlər. Yetkinlər bu balı istehlak etdikdə orqanizmlərindəki müdafiə sistemlərinin inkişafı və mədə turşusunun təsiri səbəbiylə onu zərərsizləşdirə bilərlər. Ancaq həzm sistemində botulizm sporlarını təsirsiz hala gətirəcək və çoxalmasını dayandıracaq bakteriyaların inkişafı hələ meydana gəlmədiyi üçün 1 yaşdan kiçik uşaqlara bal vermək məsləhət deyil.

**Elmi araşdırma**

## Bir qaşıqla immuna dəstək

Çoxsaylı elmi araşdırma balın orqanizmə olan unikal müalicəvi və profilaktik təsirlərini dəfələrlə təsdiq edib. Mütəxəssislərin yeni araşdırmalarının nəticəsinə görə, hər gün yalnız 1 qaşıq bal yemək insan sağlamlığına saysız fayda verər. Məsələn, sübut olunub ki, balın gündəlik istehlakı orqanizmi cavanlaşdırır, toksinlərdən təmizləyir, iltihabı azaldır. Həmçinin xolesterinin səviyyəsini aşağı salır, damarları daxildən təmizləyir, onların elastikliyini artırır. Orqanizmə antisetptik təsir göstərən bal dərinin vəziyyətini yaxşılaşdırır, immun sistemini möhkəmləndirir, insanı daha gümrah edir, stressi azaldır və yaddaşı yaxşılaşdırır.

**Seçim**

## Hər birinin öz şəfası var

Balın tərkibi yığılma mənbəyindən və emalından asılı olaraq dəyşir və hər növ balın insan orqanizminə müxtəlif faydaları var.



**Akasiya balı:** orqanizmi möhkəmləndirir, yuxusuzluq, mədə-bağırsaq, öd və böyrək xəstəlikləri zamanı faydalı təsir göstərir.

**Günəbaxan balı:** orqanizmə qidalandırıcı və müalicəvi-bakteriasid təsiri var.

**Moruq balı:** soyuqlamalar, avitaminozlar, böyrək xəstəlikləri zamanı müalicəvi vasitə kimi istifadə edilir.

**Zirinc balı:** xalq təbabətində qanaxmalar zamanı istifadə edilir.

**Pıtraq balı:** mədə-bağırsaq və dəri xəstəlikləri zamanı çox faydalıdır.

**Melissa balı:** ürək-damar və nevroz xəstəlikləri zamanı istifadə edilir.

**Nanə balı:** tərkibindəki C vitamininin miqdarı digər ballara nisbətən daha çoxdur. Bu bal orqanizmə sakitləşdirici, ödqovucu, ağrıkəsici təsir bağışlayır. Mədə-bağırsaq xəstəlikləri zamanı istifadə edilir.

**Yemişan balı:** böyrək xəstəlikləri zamanı faydalıdır.

**Çəmən balı:** böyrək xəstəlikləri, iltihabi xəstəliklər zamanı xəstəlik əlamətlərini yumşaldıcı və ağrıkəsici kimi istifadə olunur.

**Meşə balı:** bir çox xəstəliyin müalicəsi zamanı çox faydalıdır. Ondan demək olar ki, bütün xəstəliklər zamanı istifadə edilir.

**Dağ balı:** Soyuqdəymə və tənəffüs yollarının kəskin respirator xəstəlikləri, məsələn, angina, laringit, tonzillit zamanı istifadə olunur. Sinir sistemi problemləri, xroniki yorğunluq, halsızlıq, yuxusuzluq kimi yuxu pozğunluqları, iltihabi xəstəliklər, başgicəllənmə, başağrısı, miqren kimi sağlıq problemlərinin çarəsidir.

**Şabalıd balı:** vitamin və mineral baxımından çox zəngin olduğu üçün bəzi daxili xəstəliklərin müalicəsində, daha çox nəfəs yolu xəstəliklərində məsləhət görülür.

**Şam balı:** xüsusilə sinir xəstəlikləri zamanı istehlakı məqsədəuyğundur.

**Xalq təbabəti**

## Ballı çarələr

Bal tərkibində olan triptofan sayəsində yuxusuzluğu aradan qaldırır. Yatmazdan qabaq bir fincan südə bir qaşıq bal qarışdırıb içmək rahat yuxunun təminatıdır.

Bal bel ağrılarında mükəmməl vasitə kimi istifadə edilir. Belə ki, bal axşamdan belə çəkilir, üstünə bez parça bağlanılır, səhərə qədər saxlanılır. Bunu bel ağrısı tamamilə keçənə qədər edə bilərsiniz.

Balın təbii antibiotik və boğaz yumşaldıcı xüsusiyyəti öskürəkdən şikayət edənlər üçün əvəzolunmazdır. Bir az limon suyu və zəncəfili 1 çay qaşığı bal ilə qarışdıraraq içmək öskürəyi birdəfəlik kəsir.

Dermatit və kəpək kimi dəri xəstəliklərini də azaldan balı xəstəlikdən təsirlənmiş nahiyəyə sürtərək sağalmasına zəmin yarada bilərsiniz. Saç tökülməsinin qarşısını alması da balın bir başqa faydasıdır.

Bal həm də ən yaxşı yarasağaldandır. Yaraların üzərinə vurulduqda dəri əmələ gətirən epitel toxumasının yaranmasını sürətləndirir, bu da yaraların qısa zamanda sağalmasını təmin edir. Kəsilmiş, yanmış yerlərin izinin qalmasını istəmirsinizsə, onda balla müalicə edin, çünki bal kollagen liflərin bir-birinə bağlantısını daha tez əmələ gətirir. Bal hətta şişmiş yaraların şişinin çəkilməsi üçün də istifadə olunur, çünki dərialtı qan dövranını sürətləndirir.

Bir çox təbii dəriyə qulluq maskasının əsas tərkib hissəsi olan balın bu qədər geniş istifadə edilməsinin səbəbi dərini nəmləndirməsi, iltihabı önləməsi və xüsusilə B vitaminləri ilə zəngin olmasıdır.

Quru və pullanan dəridən azad olmaq üçün 1 yumurta və 1 yemək qaşığı balı kasada yaxşıca qarışdıraraq üzünüzə sürtün. 20 dəqiqə saxladıqdan sonra qarışımı ılıq su ilə yuyun. Çox qısa zamanda mükəmməl nəticə əldə edəcəksiniz.

**Şəfalı**

## Can dərmanı

Tanınmış rusiyalı qida mütəxəssisi, tibb elmləri doktoru Viktor Konışev müsahibələrinin birində xüsusilə vurğulayıb ki, insan orqanizminə ən faydalı təsir göstərən bal cökə balıdır.



Cökə balı yaz aylarında cökə ağaclarının çiçək açması və bu çiçəklərdən bal arılarının nektarını toplaması ilə əldə edilən bal növüdür. Cökə balının konsistensiyası tünd, dad və qoxusu isə digər ballardan fərqlidir.

Cökə balını digər növ ballardan ayıran xüsusi cəhəti isə onun insan orqanizmi üçün daha şəfalı olmasıdır. Bu bal xərçəngin yaranmasının qarşısını alır. Qan təzyiqini salır, ürək döyüntüsünə yaxşı təsir edir. Damar sərtliyinin qarşısını alır, ürək və damar xəstəliklərini aradan qaldırır. Bədəndəki toksinlərin aradan qaldırılmasına yardım edən cökə balı öd kisəsi xəstəliklərinə qarşı da köməkçi olur.

Soyuqdəymə zamanı əsl dərman hesab olunan cökə balı tənəffüs yolu infeksiyalarına, öskürəyə, boğaz ağrısına qarşı təsirli olmaqla bərabər, qızdırımasalıcı xüsusiyyətə də malikdir. Xalq təbabətində cökə balından soyuqlama, angina, laringit, bronxit, traxeit, bronxial astma, ürək zəifliyi, mədə-bağırsaq xəstəlikləri, böyrək və öd kisəsi xəstəlikləri zamanı istifadə edilir.

Sinir sistemi və maddələr mübadiləsinin nizamlı işləməsinə kömək edən faydalı məhsulun insanlarda qorxu və narahatlığı azaltması kimi mükəmməl təsiri də var. Həmçinin cökə balı depressiyanı azaldır, rahatlaşdırıcı təsir göstərir.

**Bilirik?**

## İstilik balın keyfiyyətini azaldır

*Bal 4 əsr qalsa da xarab olmur;*

*Bütün digər qida maddələrindən fərqli olaraq bal kiflənmir. Hətta məqsədli olaraq tərkibinə kif göbələklərini daxil etdikdə belə onlar tezliklə məhv olurlar;*

*Yürüş zamanı vəfat edən Makedoniyalı İskəndərin cəsədini uzun yolda xarab olmadan daşıya bilmək üçün bala batırmışdılar və bu şəkildə cəsəd heç bir dəyişikliyə məruz qalmadan Makedoniyaya çatdırılmışdı;*

*İstilik balın keyfiyyətini azaldır. 50 dərəcədən yuxarı temperatur isə bütün yararlı xüsusiyyətlərinin itməsinə səbəb olur.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Almaniyanın Azərbaycandakı səfiri Gəncəyə səfər edib

**Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq Gəncəyə səfər edib.**



Səfər çərçivəsində almaniyalı diplomat Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşüb. Görüşdə Azərbaycan-Almaniya münasibətlərindən söz açılıb, qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub.

Niyazi Bayramov Böyük İpək Yolu üzərində yerləşən Gəncə şəhəri haqqında qonağa ətraflı məlumat verib. Bildirib ki, Gəncəçay çayının hər iki sahilində yerləşən Gəncə Azərbaycanın ikinci böyük sənaye şəhəridir. Burada yüngül və ağır sənaye, eyni zamanda yeyinti məhsulları istehsal edən müəssisələr fəaliyyət göstərir: "Gəncə qədim zamanlardan elm və mədəniyyət mərkəzi hesab olunur. Azərbaycan Milli Elmlər Akademiyasının yeganə regional bölməsi Gəncədə yerləşir. Bununla yanaşı, Azərbaycanda aqrar sahə üzrə ixtisaslaşmış kadr yetişdirən yeganə ali təhsil ocağı - Azərbaycan Dövlət Aqrar Universiteti də məhz burada fəaliyyət göstərir".

Daha sonra Gəncənin dünyanın bir sıra şəhərləri ilə əməkdaşlıq və qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən N.Bayramov bənzər münasibətlərin Almaniya şəhərləri ilə də qurulmasının vacibliyini qeyd edib.

Səfir səmimi qəbula görə minnətdarlığını bildirib, Gəncədə olmaqdan məmnunluq ifadə edib. Qeyd edib ki, təkcə Azərbaycan yox, ümumilikdə, Qafqaz regionu üçün əhəmiyyətli şəhər olan Gəncə yüksək iqtisadi potensiala malikdir. Səfir həmçinin Almaniya və Azərbaycan arasında olan tarixi və mədəni əlaqələrə də nəzər salıb: "Almaniyanın Gəncə ilə münasibətlərinin tarixi 200 ildən artıqdır. Alman həmvətənlərim 200 il əvvəl Göygöl yaxınlığında bir qəsəbədə məskunlaşıblar ki, bu da Gəncə ilə Almaniya arasında münasibətlərin nə dərəcədə intensiv olmasını bir daha göstərir. Gəncədə alman izlərinin qorunub saxlanılması da oluqca təqdirəlayiqdir".

Sonra cənab Volfqanq Maniq 44 günlük Vətən müharibəsi dövründə Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkib, törədilmiş hərbi cinayətlərin izləri ilə yerində tanış olub.

Niyazi Bayramov bildirib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutublar. Ermənistan ordusunun Gəncədə törətdiyi müharibə cinayəti nəticəsində aralarında uşaq, qadın və yaşlıların da olduğu 26 nəfər həlak olmuş, 130-a yaxın şəxs yaralanmış, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Almaniyanın ölkəmizdəki səfiri bütün müharibə qurbanlarının, xüsusilə bir il əvvəl həlak olmuş şəxslərin xatirəsi qarşısında baş əydiklərini vurğulayıb. "Sivil, dinc əhali arasında olan qurbanlar bizə müharibənin bir daha baş verməməsi üçün əlimizdən gələn hər şeyi etməli olduğumuzu bir daha xatırladır. Biz çalışmalıyıq ki, regionda sülh və əmin-amanlıq olsun, qırğınlar bir daha baş verməsin" - deyə o, qeyd edib.

Ermənistanın silahlı qüvvələrinin Gəncədə törətdikləri terror aktları nəticəsində həlak olan mülki şəxslərin xatirəsinə ehtiram əlaməti olaraq dağılan ərazilərə tər çiçəklər düzülüb.

Səfir Volfqanq Maniq səfər çərçivəsində Nizami Gəncəvi Məqbərə Kompleksində də olub. O, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məzarını ziyarət edib. Almaniyalı diplomata Nizami Gəncəvi yaradıcılığı və zəngin irsi barədə ətraflı məlumat verilib. Daha sonra Nizami Gəncəvi Müzeyində Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə "Şərq dünyası ədəbiyyatı" mövzusunda tədbir keçirilib, almaniyalı alim və tərcüməçi Ştefan Vaydnerin məruzəsi dinlənilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakı Zooloji Parkının yenidənqurmadan sonra ilk ziyarətçiləri uşaqlar olub

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulan Bakı Zooloji Parkı qapılarını ziyarətçilərin üzünə açıb. AZƏRTAC xəbər verir ki, parkın ilk ziyarətçiləri internat evlərindən və şəhid ailələrindən olan uşaqlar olub.





Parkın icraçı direktoru Nəzakət İsayeva jurnalistlərə burada görülmüş işlərlə bağlı məlumat verib.

Bildirib ki, parkda təmir işləri 2017-ci ildə başlayıb. Ərazi 2,005 hektardan 4,025 hektara qədər genişləndirilib. Burada 300 kvadratmetr sahədə yaşıllıq salınıb. Qeyd edib ki, parkın kolleksiyasında 125 növ heyvan var ki, onlardan 22-si Azərbaycan Respublikasının "Qırmızı kitabı"na düşmüş növlərdir.

Bildirib ki, əsaslı yenidənqurma işləri nəticəsində zooparkın sakinləri üçün daha rahat volyerlər, akvaterrarium, kontakt zooparkı, süni göl və hovuzlar, baytarlıq klinikası inşa edilib. Heyvanların saxlandığı volyerlər hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq inşa edilib və sahəsi kifayət qədər genişləndirilib. Digər yeniliklər və müxtəlif əyləncə obyektləri ilə yanaşı, ərazidə uşaq meydançası, lektoriya və elektron bələdçi sistemi var.

Zooloji Parka yeni yanaşma üsulu tətbiq olunacağını söyləyən Nəzakət İsayeva deyib: "Yaxın zamanlarda ərazidə reintroduksiya işləri aparılacaq, Azərbaycanın "Qırmızı kitabı"na düşmüş, nəsli kəsilməkdə olan heyvanların təbiətdə populyasiyası artırılacaq. Bunun üçün həmin növlər parkda çoxaldıldıqdan sonra yenidən təbiətə buraxılacaq. Bundan əlavə, biologiya fakültəsində oxuyan tələbələr burada heyvanların növdaxili münasibətlərini tədqiq etmək şansı əldə edəcəklər. Balaca uşaqlar üçün isə xüsusi lektoriya otaqları tikilərək istifadəyə verilib. Parkda klinika da fəaliyyət göstərəcək. Xəstə heyvanlar burada karantinə alınaraq sağaldılacaq və sonradan öz ərazilərinə buraxılacaq".

İlk olaraq uşaqlar zooparkdakı vəhşi heyvan növləri ilə tanış olub, onların davranışlarını maraqla izləyiblər. Uşaqlara kiçik yaşlarından təbiətə sevgi hisslərini aşılamaq məqsədilə canlı aləmin həyatımızdakı rolu və mühafizəsinin əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Uşaqlar sonradan müxtəlif əhliləşdirilmiş heyvanlar, o cümlədən ponilər, keçilər, dovşanlar və zooparkın digər sakinləri ilə tanış olub, onlarla oynayıb, maraqlı və əyləncəli vaxt keçiriblər.

Tədbirin sonunda uşaqlar üçün şənliklər təşkil edilib, xatirə fotoları çəkilib.

Qeyd edilib ki, burada kassalar hər gün səhər saat 10-dan axşam 17:30-dək açıq olacaq. Biletlərin qiyməti böyüklər üçün 5 manat, kiçiklər üçün 2 manat, şəhid ailələri üçün pulsuz, qazilər və övladları, I-II-III qrup Vətən müharibəsi əlilləri, şagird və tələbələr üçün güzəştli olacaq. Həmçinin 3 yaşa qədər uşaqlar isə pulsuz yararlana biləcəklər.

Xatırladaq ki, vaxtilə Bakıda ilk dəfə Heyvanat Parkı adlandırılan zoopark 1928-ci ildə Xətai rayonundakı Nizami parkının ərazisində açılıb. 1958-ci ildə isə Bayıl ərazisində yeni Heyvanat Parkı fəaliyyətə başlayıb. 1985-ci ildə torpaq sürüşməsindən sonra Zoopark Bayıldan indiki ərazisinə köçürülüb. Əvvəllər ərazinin təmirsiz olması ilə yanaşı, heyvanların saxlanıldığı yerlər də yararsız vəziyyətdə olub.



# Millimiz yenə uduzdu

**DÇ-2022-nin seçmə mərhələsi**

***A qrupu***

Azərbaycan - İrlandiya - 0:3

**Qollar:** *Kallum Robinson, 7, 39, Çidozi Oqbene, 90*

Dünən Azərbaycan milli komandası DÇ-2022-nin seçmə mərhələsində növbəti oyununu keçirib.

A qrupunda qələbə üzünə həsrət qalan komandamız evdə İrlandiya seçməsi ilə qarşılaşmadan da 0:3 hesablı məğlubiyyətlə ayrılıb. Bununla da yığmamız qrupda sonuncu pillədə qalıb.

# Son sutkada koronavirusdan 1119 nəfər sağalıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1017 yoluxma faktı qeydə alınıb, 1119 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 16 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 491 min 147 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 471 min 980 nəfər müalicə olunaraq sağalıb, 6 min 654 nəfər vəfat edib. Aktiv xəstə sayı 12 min 513 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 min 679, dünənə qədər isə ümumilikdə 4 milyon 944 min 352 test icra olunub.




# Dünən COVID-19 əleyhinə 40 min dozaya yaxın peyvənd vurulub

Oktyabrın 9-da Azərbaycanda 39 min 890 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 13 min 816, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 26 min 74 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 8 milyon 962 min 945, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 877 min 452, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 85 min 493 nəfər təşkil edir.




# Azərbaycan vətəndaşı olan dörd uşaq Türkiyənin İskəndərun şəhərindən ölkəmizə repatriasiya edilib

Oktyabrın 9-da Türkiyə Respublikasının Hatay vilayətinin İskəndərun uşaq evində saxlanılan Azərbaycan Respublikası vətəndaşı olan dörd uşağın Vətənə repatriasiyası həyata keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, həmin şəxslərin ölkəmizə gətirilməsi Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli tədbirlər nəticəsində baş tutub. Belə ki, əvvəlcə Vətənə repatriasiyası nəzərdə tutulan uşaqların yeri, şəxsiyyəti və Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müəyyən edilib. Daha sonra İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul işçi qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələri Türkiyəyə ezam ediliblər.

Türkiyəyə ezam edilmiş nümayəndə heyəti tərəfindən uşaqların ilkin tibbi və psixoloji müayinəsi həyata keçirilib və onlara zəruri yardım göstərilib. Bundan sonra həmin vətəndaşlarımız ölkəyə qayıtmaları üçün Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən "Azərbaycan Respublikasına qayıdış şəhadətnamə"ləri və uçuş biletləri ilə təmin ediliblər.

Oktyabrın 9-da Azərbaycan nümayəndə heyətinin müşayiəti ilə həmin vətəndaşların Ankara-Bakı reysi ilə ölkəmizə repatriasiyası təmin olunub.

Müvafiq şəxslərin reinteqrasiyası və reabilitasiyası üçün Azərbaycan Respublikasının hökuməti tərəfindən bütün lazımi tədbirlərin görülməsi nəzərdə tutulub.

Repatriasiyanın həyata keçirilməsində Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının birgə və əlaqələndirilmiş fəaliyyəti həyata keçirilib. Bu prosesin reallaşmasında Türkiyə tərəfindən göstərilmiş yardım xüsusilə qeyd olunmalıdır.

Azərbaycan Respublikasının hökuməti milli qanunvericiliyə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri tədbirlərin görülməsini davam etdirəcək.

# Müdafiə Nazirliyi bölmələrimizin guya atəş açması barədə Ermənistan mətbuatında yayılan əsassız iddiaları təkzib edib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ordumuzun bölmələrinin guya Ağdərə istiqamətində atəş açması ilə bağlı Ermənistan mətbuatında yer alan əsassız iddialara münasibət bildirib.

Bununla əlaqədar Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda qeyd olunub ki, Ermənistan mətbuatında Azərbaycan Ordusunun bölmələri tərəfindən Ağdərə istiqamətində guya atəş açılması nəticəsində traktor sürücüsünün ölməsi, Arazdəyən istiqamətində isə erməni hərbi qulluqçusunun yaralanması barədə yayılan məlumatlar yalandır və həqiqəti əks etdirmir.

## Beynəlxalq aləm

# Avropada qazın qiyməti qəfil ucuzlaşdı

### Səbəb Vladimir Putinin təklifi oldu

Çərşənbə günü Avropada qazın fyuçers qiymətləri 1000 kubmetrə görə rekord həddə - 1937 dollara çatmışdı.

Lakin Rusiya Prezidenti Vladimir Putinin "Qazprom"a qazın Avropa bazarına təklifin artırılması haqda düşünməyi tövsiyə etməsi vəziyyəti kəskin şəkildə dəyişdi və qiymət sürətlə endi. Hazırda 1000 kubmetr qazın qiyməti 1000-1200 dollar civarında dəyişir.

Xatırladaq ki, sentyabrın 28-də Avropada qazın qiyməti tarixi rekord həddə çataraq ilk dəfə olaraq 1000 dollara çatmışdı. O zamandan bəri qiymətlər sürətlə artmaqda davam edirdi.

"Blumberg" agentliyi və "Financial Times" qəzeti yazırlar ki, V.Putinin Rusiyanın Avropaya qaz tədarükü üzrə müqavilə öhdəliklərini aşa biləcəyi haqqında dedikləri bazarları, necə deyərlər, sərinlədib. RF Baş nazirinin müavini Aleksandr Novak Prezidentin keçirdiyi müşavirədə bildirib ki, qazın birja qiymətləri real vəziyyəti əks etdirmir, çünki burada "spekulyativ yanaşma" var. Putin isə qeyd etdiyimiz kimi, "Qazprom"u "bazarda təklifin artırılması haqda düşünməyə" çağırıb. "Amma bunu səliqəli etmək lazımdır. "Qazprom"la hesablayın, danışın. Mən sizinlə razıyam. Çünki məlum olduğu kimi, bu cür alverçi ajiotajların arxasında digər xoşagəlməz hadisələr baş verir", - deyə Rusiya Prezidenti qazın qiymətinin rekord həddə çatmasına münasibət bildirib.

RF Prezident, həmçinin "Qazprom"a Ukrayna ərazisindən Rusiya qazının tranziti ilə bağlı bütün müqavilə öhdəliklərinin yerinə yetirilməsini təmin etməyi tapşırıb. Bildirib ki, "Rusiya-Ukrayna münasibətləri ilə bağlı bütün məqamlara baxmayaraq, Ukrayna da daxil olmaqla, heç kimi çətin vəziyyətə salmaq lazım deyil".

V.Putinin bu qərarından sonra Avropada qazın fyuçers qiymətləri 600 dollardan çox ucuzlaşıb. "Blumberg" xəbər verir ki, Rusiya Prezidenti bazarı sabitləşdirməyi təklif etdiyinə görə qazın qiymətləri 60 faiz artımdan sonra aşağı düşməyə başlayıb.

"Hargreaves Lansdown" maliyyə servisi şirkətinin investisiya və bazarlar üzrə baş analitiki Süzanna Striter vəziyyəti belə şərh edir: "Putinin verdiyi vədlər, maliyyə bazarlarında artan qiymətlər fırtınasını sakitləşdirməyə kömək edəndə aydın olur ki, investorlar yaxşı xəbərlərə böyük ehtiyac duyur".

"Röyter" agentliyinin xəbərinə görə, Avropanın ən iri qaz şirkətləri bildirirlər ki, qitədə ən iri qaz tədarükçüsü olan "Qazprom" özünün uzunmüddətli müqavilələrini yerinə yetirir. Lakin bəzi Avropa siyasətçiləri ajiotaj tələbatın yaradılması üçün tədarükün azaldılmasında birbaşa Rusiyanı günahlandırırdılar. Putin isə hesab edir ki, qiymətlərin qalxmasında Avropa Komissiyası günahkardır, çünki o, uzunmüddətli müqavilələrin bağlanmasından imtina etməyə və birjada qaz ticarətinə keçməyə çalışırdı. "Bu gün tamamilə aydın oldu ki, bu siyasət yanlışdır", - deyə Rusiya Prezidenti vurğulayıb.

Hazırda"Qazprom" Avropanın qaza olan tələbatının 35 faizini təmin edir. Ötən ayın 10-da Avropaya qaz nəqlinin gerçəkləşdirilməsi üçün "Qazprom"un ən iri layihəsi olan "Şimal axını - 2" boru kəmərinin tikintisi rəsmən başa çatıb.

# Fransada minlərlə uşaq keşişlərin təcavüzünə məruz qalıb

Son 70 ildə 200 mindən çox uşaq Fransa katolik kilsəsinin ruhaniləri tərəfindən cinsi zorakılığa məruz qalıb. Bunu genişmiqyaslı müstəqil araşdırmanın dünən nəşr olunan nəticələri sübut edir.

Cinsi zəmində cinayətlərin müstəqil istintaqı 2018-ci ildə fransız katolik kilsəsi tərəfindən digər ölkələrin kilsələrində baş verən böyük qalmaqallar dalğasında başlamışdır. Komissiyanın tərkibinə həkimlər, sosioloqlar, tarixçilər və teoloqlar daxil idi.

2,5 min səhifəlik hesabatın müəllifləri kilsə və polis arxivlərini araşdırmış, həmçinin şahid və qurbanlarla söhbətlər etmişlər. 2 il yarımda ekspertlər 1950-ci ildən bəri məlumatlar toplamış və 6500-dən çox adam arasında sorğular aparmışlar. Araşdırmanın nəticələri göstərmişdir kı, katolik məktəblərində müəllimlərin də iştirak etdiyi zorakılığın qurbanlarının sayı 330 minə çatır. Ümumilikdə Fransanın 115 min keçmiş və indiki katolik keşişindən 3 minə yaxını zorakılıqda iştirak edib. Katolik kilsəsinin qurbanlarının böyük əksəriyyəti yeniyetmə yaşına çatmamış müxtəlif sosial təbəqələrdən olan oğlanlar olmuşlar ki, onların da 60 faizi yetkinlik dövründə cinsi və psixi sağlamlıqla bağlı ciddi çətinliklərlə üzləşmişlər.

Araşdırmanın rəhbəri Jan-Mark Savye məruzədə göstərilən rəqəmləri heyrətləndirici adlandırıb. Onun dediyinə görə, son vaxtlara qədər katolik kilsəsi qurbanlarına qarşı dərin və hətta qəddar laqeydlik nümayiş etdirib.

Zorakılıq Qurbanları Assosiasiyasının rəhbəri Fransua Devo isə Fransanın katolik kilsəsini sərt şəkildə pisləyən məruzənin dərc olunmasını alqışlayıb.

Hesabatın müəllifləri iddia edirlər ki, kilsə nəinki zorakılığın qarşısını ala bilməyib, belə hallar barədə məlumat verməyib, hətta bilərəkdən uşaqların cinayətkarlarla əlaqəsinə yol verib.

Qurbanlardan biri məruzəni Fransa tarixində dönüş nöqtəsi adlandırmış və əlavə etmişdir ki, katolik kilsəsinin öz hərəkətlərini köklü surətdə yenidən nəzərdən keçirmək vaxtıdır. BBC-nın müxbiri Hyu Skofild isə hesab edir ki, məruzədəki faktları qəbul etmək çox çətin olacaq, onlar fransızlar üçün sarsıntıya çevriləcək. Buna cavab olaraq, Fransa Arxiyepiskopları Konfransının prezidenti Erik de Mulen-Bofor deyib: "İndi mənim arzum sizin hər birinizdən üzr istəməkdir".

Bütün bunlardan sonra günahkarların cinayətlərinə görə məsuliyyət daşıyıb-daşımayacaqları hələ də aydın deyil. Belə ki, fransız qanunlarına görə, məruzədəki halların əksəriyyətində iddia müddəti ötüb və bu səbəbdən onlar məhkəmə təqibinin predmeti ola bilməz.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Bakı Tədris Mərkəzinin kollektivi iş yoldaşları mərkəzin eksperti

**ELXAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5611
Sifariş 1873
Qiyməti 40 qəpik